# Zakir Həsənov Laçında hərbi hissələrdə olub



**Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin diqqət və qayğısı nəticəsində yüksək dağlıq ərazilərdə xidmət aparan hərbi qulluqçuların sosial-məişət şəraitinin daha da yaxşılaşdırılması üçün görülən işlər davam etdirilir.**

Müdafiə Nazirliyindən "Şərq"ə verilən xəbərə görə, Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti Laçın rayonunda dislokasiya olunan hərbi hissədə yeni tikilən və əsaslı təmir edilən hərbi infrastruktura baxış keçirib.

# 40 yaşlı qadın məktəbdə bıçaqlanaraq öldürülüb



**İsmayıllı rayonunda orta məktəbdə qətl hadisəsi baş verib.**

Trend- in məlumatına görə, hadisə rayonun Basqal kənd orta məktəbinin qarşısında qeydə alınıb. məktəbdə gözətçi işləyən, 1997-ci il təvəllüdlü Əhmədli Bəxtiyar Qurban oğlu məktəbin texniki işçisi, 1982-ci il təvəllüdlü Qəhrəmanova Gülarə Qara qızını bıçaqlayaraq öldürüb.

B.Əhmədli hadisə yerindən qaçıb.



# Biletlər artıq satışa çıxarılıb

## Novruzda Bakı-Şuşa-Bakı avtobus reysləri hər gün olacaq

**Marşrutların təhlili, həmçinin vətəndaşların çoxsaylı müraciətləri və tələbat nəzərə alınaraq mart ayında - Novruz bayramı günlərində Bakı - Şuşa - Bakı istiqamətində avtobus reyslərinin hər gün həyata keçirilməsi qərara alınıb. Biletlər artıq satışa çıxarılıb.**

Bu barədə Rabitə və Rəqəmsal İnkişaf Nazirliyi məlumat yayıb.

Qeyd olunub ki, bu günə qədər Şuşa və Ağdama 27 reys uğurla həyata keçirilib. Fevral ayı üzrə bilet satışı artıq yekunlaşmaq üzrədir. Bakı - Şuşa - Bakı və Əhmədbəyli - Şuşa - Əhmədbəyli marşrutlarında isə bütün biletlər alınıb.

(səh.2)


❒ № 27 (5549), 2022-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 12 fevral 2022-ci il (şənbə)




## "Ölkə daxilində enerji təhlükəsizliyi ilə bağlı heç bir problem yoxdur"

### Prezident İlham Əliyev: "Nəhəng enerji obyektlərinin inşası bizim güclü imkanlarımızdan xəbər verir"

**"Qobu" Enerji Qovşağı son illər ərzində inşa edilən ən böyük enerji obyektlərindən biridir.**

Nəzərə alsaq ki, həftənin əvvəlində "Yaşma" yarımstansiyası işə salındı, hər kəs görə bilər, cəmi bir həftə ərzində Azərbaycanda enerji sahəsində nə qədər böyük işlər görülüb. Əlbəttə, bu nəhəng enerji obyektlərinin inşası zaman tələb edirdi. Ancaq ən qısa mümkün vaxt kəsiyində belə nəhəng enerji obyektlərinin inşa edilməsi bizim güclü imkanlarımızdan xəbər verir.

(səh.2)

## Ərdoğan imzanı atdı

### Türkiyə Prezidenti Şuşa Bəyannaməsini təsdiqləyib



**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Şuşa Bəyannaməsini təsdiq edib.**

Bu barədə "Anadolu" Agentliyi məlumat yayıb.

Bildirilir ki, Ərdoğan Türk Dövlətləri Təşkilatı Ağsaqqallar Şurasının üzvlərini qəbul edərkən Şuşa Bəyannaməsinin "Resmi Gazete"də yayımlanaraq qüvvəyə minməsi üçün müvafiq qərarı imzalayıb.

*Xatırladaq ki, ötən il iyunun 15-də imzalanmış Şuşa Bəyannaməsi Azərbaycan və Türkiyə parlamentləri tərəfindən təsdiqlənib.*

# Ermənistan bəzi meyit qalıqlarını qaytarıb

## Hazırda onların kimliklərinin müəyyənləşdirilməsi prosesi gedir



Qalıqların qarışıq verilməsi meyitlərin kütləvi məzarlıqlarda basdırıldığını sübut edir

**Beynəlxalq Qızıl Xaç Komitəsinin vasitəçiliyi ilə Azərbaycan tərəfinə bəzi meyit qalıqları qaytarılıb, hazırda onların kimliklərinin müəyyənləşdirilməsi prosesi gedir.**

Bunu Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının İşçi qrupu rəhbərinin müavini Eldar Səmədov deyib.

O qeyd edib ki, meyit qalıqlarının sayının nə qədər olacağı ilə bağlı son mərhələdə dəqiq məlumat biliniəcək.

(səh.3)



## Azərbaycan ordusu mülki yaşayış evini atəşə tutmayıb

**Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisində yaşayış evinin atəşə tutulması barədə yayılan məlumat yalandır.**

Bu barədə "Şərq"ə Müdafiə Nazirliyindən bildiriblər.

"Erməni sosial şəbəkələrində guya Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisində Ordumuzun bölmələri tərəfindən mülki yaşayış evinin atəşə tutulması barədə yayılan məlumat yalandır, təxribat xarakteri daşıyır", - məlumatda deyilir.

# Rusiya Qarabağda da eyni səhra hospitalı qurub

## Ukrayna sərhədindəki görüntülər şok yaratdı

**ABŞ-ın "Maxar" texnoloji şirkətinin yaydığı peyk görüntüləri Rusiyanın 2014-cü ildə tabeliyinə keçirdiyi Krımdakı yerləşmə nöqtələrini üzə çıxarır. Fotolardan birində Belarus - Ukrayna sərhəddində yerləşən Qomeldəki Zyabrovka hərbi-hava bazasının yerləşim nöqtəsi görüntülənir.**

Zyabrovka Ukrayna sərhəddinə 25 kilometrliyindən də az məsafədədir. Hərbi bazanın peykdən çəkilmiş fotosunda diqqət çəkən detal Rusiya ordusuna məxsus nəhəng səhra hospitalının qurulmasıdır. Rusiyanın Ukrayna sərhəddinə silahlarla birgə tibb işçilərindən ibarət böyük komanda toplaması işğal ehtimalını gücləndirir.

(səh.4)




## Koronavirusdan 26 nəfər ölüb

### Daha 6 603 nəfər də xəstəliyə yoluxub




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 6 603 yeni yoluxma faktı qeydə alınıb, 6 347 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən xəbərə görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 26 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 732 380 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 672 256 nəfər müalicə olunaraq sağalıb, 8 998 nəfər vəfat edib, aktiv xəstə sayı 51 126 nəfərdir.

*Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 17 401, ötən müddət ərzində isə ümumilikdə 6 352 994 test aparılıb.*

## Şəkidə avtomobil aşıb, iki nəfər ölüb




**Şəkidə ağır yol qəzası baş verib.**

Hadisə Qarəməryəm-İsmayıllı-Şəki avtomobil yolunun Şəki rayonunun Kövər Zəyzid kəndi ərazisindən keçən hissəsində qeydə alınıb. (apa)

"KİA" markalı avtomobilin yoldan çıxaraq aşması nəticəsində biri azyaşlı olmaqla, iki nəfər hadisə yerində ölüb. Qəzada ağır xəsarət alan bir nəfər isə Şəki Rayon Mərkəzi Xəstəxanasına aparılıb. Hazırda hüquq-mühafizə orqanlarının əməkdaşları hadisə yerində araşdırma aparır.



## 6 aya yekunlaşacaq

### Media reyestrinin aparılması qaydasının hazırlanmasına başlanılıb

(səh.2)

## Yeni komanda və idarəçilik gəlir

### İlham Şaban: "İndi Neft Şirkətinin qarşısında tamam başqa vəzifələr qoyulur"

(səh.4)





# "Ölkə daxilində enerji təhlükəsizliyi ilə bağlı heç bir problem yoxdur"

## Prezident İlham Əliyev: “Nəhəng enerji obyektlərinin inşası bizim güclü imkanlarımızdan xəbər verir”

**“Qobu” Enerji Qovşağı son illər ərzində inşa edilən ən böyük enerji obyektlərindən biridir. Nəzərə alsaq ki, həftənin əvvəlində ”Yaşma” yarımstansiyası işə salındı, hər kəs görə bilər, cəmi bir həftə ərzində Azərbaycanda enerji sahəsində nə qədər böyük işlər görülüb. Əlbəttə, bu nəhəng enerji obyektlərinin inşası zaman tələb edirdi. Ancaq ən qısa mümkün vaxt kəsiyində belə nəhəng enerji obyektlərinin inşa edilməsi bizim güclü imkanlarımızdan xəbər verir.**

Prezident İlham Əliyev bu fikirləri ”Qobu” Enerji Qovşağının açılış mərasimindən sonra AZƏRTAC-a müsahibəsində söyləyib.

”Yaşma” yarımstansiyasının və ”Qobu” Enerji Qovşağının əhəmiyyətindən danışan dövlətimizin başçısı deyib: ”Həftənin əvvəlində Yaşmada böyük yarımstansiyanın istifadəyə verilməsi enerji dayanıqlılığına xidmət göstərəcək. Gücü 750 meqavat olan yarımstansiya əlbəttə ki, bizim enerji sistemimizdə önəmli yer tutacaq. Bu gün isə 385 meqavat gücündə ”Qobu” Elektrik Stansiyasının açılması əlbəttə, generasiya güclərimizi böyük dərəcədə artıracaq. Bu stansiyanın yanında cəmi bir il ərzində 1000 meqavatlıq yarımstansiya inşa edilib”.

Prezident bildirib ki, bu genişmiqyaslı nəhəng layihələrin icrasında ancaq Azərbaycan şirkətləri, Azərbaycan mütəxəssisləri, fəhlələri iştirak ediblər. Yəni, bu, onu göstərir ki, bizim çox güclü texniki potensialımız, kadr potensialımız var.

Dövlət başçısı bildirib:

“Bu gün hər kəs görür ki, dünyada iqtisadi, maliyyə böhranı hələ də başa çatmayıb. Buna baxmayaraq, Azərbaycanda öz vəsaiti hesabına inşa edilən bu nəhəng obyektlərin istifadəyə verilməsi həm maliyyə imkanlarımızı göstərir, maliyyə müstəqilliyimizdən xəbər verir, texniki imkanlarımızı göstərir və onu göstərir ki, son illərdə elektrik enerjisi sahəsində çox böyük işlər görülüb, bu işlərin yenə də davamı var. Çünki artan tələbat - həm daxili tələbat, həm xarici tələbat, artan ixracımız bunu diktə edir. Onu da bildirməliyəm ki, keçən il Azərbaycanda 27 milyard kilovat/saat elektrik enerjisi istehsal edilmiş və 1,6 milyard kilovat/saat ixrac olunmuşdur. Bu, rekord göstəricidir. Yəni, biz artıq çox ciddi elektrik enerjisini ixrac edən ölkəyə çevrildik. Qeyd etdiyim kimi, həm daxili tələbat, həm də xaricdə enerji gücümüzə olan tələbat bizi yeni addımların atılmasına sövq edəcək”.

> “Zəngəzur dəhlizi üzərindən Naxçıvana, oradan isə Türkiyəyə və İrana yeni enerji xəttinin çəkilişi planlarımızdadır”

**Prezident deyib ki, ölkə daxilində enerji təhlükəsizliyi ilə bağlı heç bir problem yoxdur:**

”Biz hamımız xatırlayırıq ki, müstəqilliyimizin ilk illərində bizim özümüzə enerji gücü çatmırdı. Mövcud olan stansiyalar yararsız vəziyyətdə idi və yeni stansiyaların tikilməsinə pulumuz yox idi, Azərbaycan elektrik enerjisini Rusiyadan idxal edirdi. Təbii qazla bağlı qıtlıq var idi, bölgələrdə, ümumiyyətlə, qaz yox idi və neft hasilatı kəskin düşmüşdü. Bu gün isə Azərbaycan dünya miqyasında bütün bu enerji komponentlərinin inkişafına görə qabaqcıl ölkələrdəndir. Təsadüfi deyil ki, bu ay keçirilmiş 8-ci Cənub Qaz Dəhlizi Məşvərət Şurası məhz bu uğurlarımızı bir daha qeyd etdi. Orada çıxış edən demək olar ki, bütün iştirakçılar Azərbaycanın potensialından, Azərbaycanın imkanlarından danışdılar. Mən orada çıxış edərkən dedim ki, biz etibarlı tərəfdaşıq, öz öhdəliklərimizi yerinə yetiririk, buna gücümüz də çatır, iradəmiz də çatır, məsuliyyətimiz də çatır. Ona görə bugünkü mənzərə çox müsbətdir və ölkə daxilində enerji təhlükəsizliyi ilə bağlı heç bir problem yoxdur, amma bu gün dünyanın bir çox ölkələrində bu problemlər var və kəskinləşir. Bəzi ölkələr, ümumiyyətlə, öz enerji balansını düzgün tərtib edə bilmirlər. Çünki xarici təchizatçılardan asılıdırlar və orada müəyyən problemlər yaranıbdır. Ona görə biz həm ölkə daxilində, həm bölgədə, həm geniş mənada qitədə çox etibarlı enerji təchizatçısı ölkəsinə çevrilmişik.

Əlbəttə ki, növbəti planlarımız da var. Həm daxildə, həm xaricdə artan tələbatı ödəmək üçün bizim böyük planlarımız var, onlar reallaşır, o cümlədən bərpaolunan enerji növləri ilə bağlı planlarımız. Əminəm ki, bu gün burada qeyd etdiyimiz açılış və buna bənzər açılışlar bundan sonra da çox olacaq”.

**Dövlət başçısı vurğulayıb ki, Zəngəzur dəhlizi üzərindən Naxçıvana, oradan isə Türkiyəyə və İrana yeni enerji xəttinin çəkilişi indi artıq planlarımızdadır:**

”Bizim bütün dörd qonşu ölkə ilə dediyim kimi, enerji bağlantıları var, yeni bir layihə üzərində biz indi işləyirik. Zəngəzur dəhlizi üzərindən Azərbaycandan Naxçıvan Muxtar Respublikasına, oradan isə Türkiyəyə və İrana yeni xəttin çəkilişi indi artıq planlarımızdadır və mən demişdim ki, Zəngəzur dəhlizi təkcə dəmir yolu, avtomobil yolu, hava nəqliyyatlı üçün deyil, eyni zamanda, enerji növlərinin bu dəhliz üzərindən ixrac edilməsi ilə bağlı Zəngəzur dəhlizi öz rolunu oynayacaq və Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikasını elektrik enerjisi ilə təmin etmək üçün və oradan xarici bazarlara çıxmaq üçün və Türkiyədən sonra Avropaya çıxmaq üçün yeni bir xəttimiz olacaq. Bir xətt Gürcüstan-Türkiyə üzərindən keçir və ikinci xətt oradan keçməlidir. Bunun üzərində biz işləyirik və artan ixracımız həm önəmimizi artıracaq, geosiyasi önəmimizi artıracaq, eyni zamanda, bizə əlavə valyuta gətirəcək. Biz təkcə neftdən, qazdan yox, eyni zamanda, elektrik enerjisindən də valyuta qazanacağıq və ölkəmiz daha da firavan yaşayacaq. Ona görə bütün bu layihələr bizim planlarımızdadır. Bugünkü açılış mərasimi bir daha gücümüzü göstərir, iradəmizi göstərir. Onu göstərir ki, qarşımızda duran bütün vəzifələri biz uğurla icra edirik.”.

# 6 aya yekunlaşacaq

## Media reyestrinin aparılması qaydasının hazırlanmasına başlanılıb



**Hazırda tərəfimizdən media reyestrinin aparılması qaydası hazırlanır və bu layihə tez bir zamanda aidiyyəti üzrə dövlət qurumları ilə razılaşdırıldıqdan sonra təsdiq edilməsi üçün təqdim olunacaq.**

Bunu Medianin İnkişafı Agentliyinin (MEDİA) icraçı direktoru Əhməd İsmayılov Trend-ə müsahibəsi zamanı deyib.

O qeyd edib ki, Prezident İlham Əliyevin 8 fevral tarixli Fərmanında altı ay ərzində Media Reyestrinin yaradılması ilə bağlı tapşırıq nəzərdə tutulub.

”Qaydalar təsdiq olunduqdan sonra artıq texniki şərtlərin həll olunması və reyestrin İT həllərinin təmin edilməsi istiqamətində tərəfimizdən zəruri tədbirlər görüləcək. Düşünürük ki, altı ay ərzində biz bu reyestri yekunlaşdırmalıyıq”, - deyə Ə.İsmayılov bildirib.

O əlavə edib ki, Media Reyestrində həm media subyektlərimiz, həm də könüllülük əsasında jurnalistlərimiz qeydiyyata alına bilərlər.

”Yəni jurnalistlərimizin qeydiyyatı məcburi deyil, jurnalistlər öz iradələri əsasında həmin reyestrdə olub-olmamaları barədə qərar verirlər. Media subyektləri isə ümumiyyətlə qeydiyyata alınır. Həm audiovizual media subyektləri, həm onlayn, həm də çap media subyektləri qeydiyyata alınacaq. İnformasiya agentlikləri üçün də media reyestrində ayrıca bir bölmə nəzərdə tutulacaq.

Media Reyestrinin yaradılmasının məqsədi media sahəsində sistemli yanaşmanın tətbiqidir. Bu reyestr dünyada mövcud olan bildiriş xarakterli reyestirdir, media subyektinin özünü bəyanetmə mexanizmidir. Bu media reyestrinin formalaşması bizə imkan verəcək ki, media sahəsinin və jurnalistlərimizlə bağlı layihələrin həyata keçirilməsinin iqtisadi və hüquqi əsaslandırılmasını həyata keçirək”, - deyə o qeyd edib.

# Rusiya Qarabağda da eyni səhra hospitalı qurub

## Ukrayna sərhədindəki görüntülər şok yaratdı



**ABŞ-ın ”Maxar” texnoloji şirkətinin yaydığı peyk görüntüləri Rusiyanın 2014-cü ildə tabeliyinə keçirdiyi Krımdakı yerləşmə nöqtələrini üzə çıxarır. Fotolardan birində Belarus - Ukrayna sərhəddində yerləşən Qomeldəki Zyabrovka hərbi-hava bazasının yerləşim nöqtəsi görüntülənir.**

Zyabrovka Ukrayna sərhəddinə 25 kilometrliyindən də az məsafədədir. Hərbi bazanın peykdən çəkilmiş fotosunda diqqət çəkən detal Rusiya ordusuna məxsus nəhəng səhra hospitalının qurulmasıdır. Rusiyanın Ukrayna sərhəddinə silahlarla birgə tibb işçilərindən ibarət böyük komanda toplaması işğal ehtimalını gücləndirir. Fotolar böyüdüldükdə, eyni səhra hospitalının Qarabağda rus sülhməramlılarının qurduğu xəstəxanayla eyni şəkildə, eyni üslubda olduğu aydın görünür.

ABŞ-da bu görüntülər başlayacaq rus işğalının rəmzi hesab edilir. Qomeldə yüzlərlə hərbi texnika və canlı qüvvənin toplandığı çadırlar da qurulub. Ukrayna sərhəddinə yaxın nöqtə olan Kurskda da eyni görüntülər var. Kursk Ukrayna sərhəddinin 100 kilometrliyindədir. Bu arada Frans-Press Agentliyi (Agence France-Presse) isə Ukrayna sərhəddində baş verənləri ”Yeni müharibə oyunu” başlığı ilə yayıb.

**Məlahət Rzayeva**



# Biletlər artıq satışa çıxarılıb

## Novruzda Bakı-Şuşa-Bakı avtobus reysləri hər gün olacaq

**Marşrutların təhlili, həmçinin vətəndaşların çoxsaylı müraciətləri və tələbat nəzərə alınaraq mart ayında - Novruz bayramı günlərində Bakı - Şuşa - Bakı istiqamətində avtobus reyslərinin hər gün həyata keçirilməsi qərara alınıb. Biletlər artıq satışa çıxarılıb.**

Bu barədə Rabitə və Rəqəmsal İnkişaf Nazirliyi məlumat yayıb.

Qeyd olunub ki, bu günə qədər Şuşa və Ağdama 27 reys uğurla həyata keçirilib. Fevral ayı üzrə bilet satışı artıq yekunlaşmaq üzrədir. Bakı - Şuşa - Bakı və Əhmədbəyli - Şuşa - Əhmədbəyli marşrutlarında isə bütün biletlər alınıb.

Bakı - Şuşa - Bakı istiqamətində fevralın 16-dan həftədə 2 dəfə deyil, 3 dəfə avtobus reysi həyata keçiriləcək. İlkin mərhələdə tətbiq edilmiş bir dəfə səfər etmək məhdudiyyəti aradan qaldırılıb.

Biletlər Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin müvafiq marşrut proqramı ilə inteqrasiya olunmaqla yaradılan www.yolumuzqarabaga.az portalı üzərindən onlayn qaydada satılır.

Marşrutlar üzrə qiymətləndirilmələr və təhlillər davam etdiriləcək. Tələbata uyğun olaraq müvafiq qərarlar qəbul olunacaq.

**Sənan**

# Ərdoğan məmnundur

## Azərbaycanla bağlı hadisələr müsbət yöndə irəliləyir

**Azərbaycanla bağlı hadisələr müsbət yöndə irəliləyir.**

Trend-in məlumatına görə, bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan jurnalistlərə açıqlamasında deyib.

”Hazırda Rusiya-Ukrayna böhranı var və bununla bağlı addımlar atırıq. Ukrayna səfərimizdən sonra digər ölkələr də addım atır. Onlarla da görüşlərimiz olub. Azərbaycanla da bağlı hadisələr müsbət yöndə irəliləyir və bu, bizi sevindirir. Əlbəttə ki, dünyada baş verənləri yaxından izləyirik. Dünyadan qopmuş liderlik və ya siyasət olmaz”, - deyə o bildirib.

# Kəmalə Quliyeva BDU-nun mətbuat katibi təyin olunub



**Bakı Dövlət Universitetinin (BDU) ictimaiyyətlə əlaqələr və informasiya şöbəsinə yeni müdir təyin olunub.**

Bununla bağlı BDU-nun rektoru Elçin Babayev müvafiq əmr imzalayıb.

Jurnalistikanın Müdafiəsi və Jurnalistlərin Təhlükəsizliyi Platformasına cavab verilib

AzTV yaranandan orada çalışan operator vəfat edib

Əmrə əsasən, Kəmalə Quliyeva BDU-nun ictimaiyyətlə əlaqələr və informasiya şöbəsinin müdiri təyin edilib.

*Qeyd edək ki, Kəmalə Quliyeva daha əvvəl APA İnformasiya Agentliyinin redaktoru idi.*

# Qərb Rusiyanı müharibəyə çəkir

## Bununla Moskvanı zəiflətmək, maliyyəsini, hərbi resurslarını bitirmək niyyətindədirlər




**ABŞ yenə vətəndaşlarını Ukraynanı tərk etməyə çağırıb. Ölkənin Ukraynadakı səfirliyi bu barədə bəyanat yayıb. Qeyd olunub ki, Ukraynada təhlükəsizlik vəziyyətinin qəfil pisləşməsi riski var: ”ABŞ vətəndaşlarını Ukraynanı dərhal tərk etməyə çağırır”.**

ABŞ-ın ardınca Britaniyadan da Ukrayna-Rusiya gərginliyinə reaksiya gəldi. Böyük Britaniyanın Müdafiə naziri Ben Uolles bu barədə açıqlama yayıb. O bildirib ki, qərb ölkələrinin Rusiya rəhbərliyi ilə apardığı danışıqlara baxmayaraq, Ukrayna sərhədləri yaxınlığında vəziyyət getdikcə daha da gərginləşir: ”Rusiya hələ də Ukrayna sərhədlərində hərbi batalyon qruplarının sayını artırır. Həmçinin hərbi kontingentini Belarusa göndərir və orada qoşun yerləşdirib”.

Ben Uollesin sözlərinə görə, Britaniya gərginliyin azaldılması üçün mümkün hər şeyi etməyə hazırdır.

**Qərbin münaqişə ilə bağlı açıqlamalarındakı gizli ”kod”ları ”Şərq”ə şərh edən politoloq Turab Rzayev bildirib ki, qərblilər Rusiyada yeni Əfqanıstan yaratmaq istəyirlər:** ”Rusiyanın Ukrayna sərhədləri yaxınlığına qısa müddətdə 30 eşalondan çox hərbi texnika göndərdiyini müşahidə etdik. Bunun hərbi təlim üçün nəzərdə tutulmadığı aydın şəkildə görünür. Həmçinin Belarus - Ukrayna sərhədinə minlərlə əsgər yığılıb. Bunlar Rusiya - Ukrayna arasındakı gərginliyi daha da artırır. Qərb dövlətlərinin isə münaqişə ilə bağlı açıqlamalarında iki məqam var. Onlar həm vətəndaşlarına, həm də dünyaya Rusiyanın işğalçı, aqressiv olduğu mesajını ötürürlər. Nəticədə Moskvaya qarşı qlobal təzyiqin formalaşdırılması nəzərdə tutulub.

İkinci məqam isə qərblilərin Rusiyanı müharibəyə təşviq etməsidir. Bununla da Moskvanı zəiflətmək, maliyyəsini, hərbi resurslarını bitirmək niyyətindədirlər. Baş verənlər Moskvanı tələyə çəkmək üçün atılan addımlardır”.

***Politoloq müharibənin baş tutacağı təqdirdə Ukraynaya yardımların daha da artırılacağını qeyd edib:*** ”Şərqi Avropada real savaş təhlükəsi var. Amma Rusiya buna cəsarət etməyəcək. Çünki Qərb dövlətlərinin Rusiyanın qarşısında duracağı bəllidir. Onlar Ukraynaya hərbi, maliyyə yardımlarını etməyə davam edirlər. Ukraynaya 1,5 milyard dollardan çox hərbi, maliyyə yardımı olunub. Böyük Britaniya 2 milyarddan çox yardım söz verib. Bunun 1 milyardı hərbi texnika yardımıdır. Əsas məqsəd silahlanmada, təlimdə, iqtisadiyyatda Rusiya ilə Ukrayna arasındakı fərqi aradan qaldırmaqdır. Müharibə baş verərsə, NATO-nun birbaşa Rusiya ilə döyüşəcəyi mümkünsüz görünür”.

**Xanlar Əlibəy**

# Barmaq izi görünür, oyun qaydaları dəyişməyib

## Kreml Bakıya siyasi mesajlar çatdırmaq istəyir



Qarabağda erməni təxribatları planlıdır, rus sülhməramlıları əvvəlcədən məlumatlandırılır

İsmayıl Qocayev

**”Rusiya sülhməramlı qüvvələrinin müvəqqəti dislokasiya olunduğu Xankəndi və ətraf bölgədə erməni təxribatları təsadüfi deyil. Rus sülhməramlıları həmin təxribatları sadəcə, müşahidə edirlər”.**

*Bu barədə ”Şərq”ə politoloq Elçin Xalidbəyli deyib. Ekspert bildirib ki, bu, onu göstərir ki, erməni təxribatları planlı xarakter daşıyır və rus sülhməramlı qüvvələri əvvəlcədən məlumatlandırılır:* ”Bir müddət öncə erməni separatçının rus sülhməramlıları ilə birlikdə Azərbaycanın yük maşınlarının yoxlanılmasında iştirak etməsi də Kremlin rəsmi Bakıya hansısa siyasi mesajlar çatdırmaq istədiyini göstərir. Böyük ehtimalla Xankəndi və ətraf bölgədə, eləcə də, silahlı insidentlərin törədilməsində əsasən iki səbəb ola bilər. Birincisi, Kremldə anlayırlar ki, rəsmi Bakı rus sülhməramlıların ilk müvəqqəti dislokasiya müddəti sona çatdıqdan sonra onların Azərbaycan ərazisindən çıxarılmasını tələb etməyə üstünlük verə bilər. Ona görə də, rus sülhməramlı qüvvələrin Xankəndi və ətraf bölgədə fəaliyyəti gərginliyin artırılması istiqamətində qurulub. Əsas məqsəd rus sülhməramlıların bölgədə hələ uzun müddət qalmasına ehtiyac olduğu barədə rəy yaratmaqdır. İkinci önəmli məqam isə Rusiyanın Azərbaycan tərəfindən müstəqil siyasət yürüdülməsindən ciddi şəkildə narahat olması ilə bağlı ola bilər. Çünki Kreml Ukrayna böhranına, eləcə də, ABŞ və NATO ilə qarşıdurmaya münasibətdə Azərbaycanı Rusiyanın yanında görmək istəyir. Azərbaycan isə bir tərəfdən Ukraynanın ərazi bütövlüyünü dəstəkləyir. Digər tərəfdən isə Rusiyanın ABŞ və NATO ilə qarşıdurmasından məsafə saxlamağa çalışır. Bu isə Kremli qətiyyən qane etmir”.

**E.Xalidbəyli vurğulayıb ki, Azərbaycanın Avropa Birliyi üçün enerji mənbələri üzrə alternativ qatmağa çevrilməyə başlaması da Rusiyanın maraqlarına qətiyyən cavab vermir:** ”Çünki Rusiyanın enerji resursları Avropa Birliyi ölkələrinə təzyiq baxımından, Kremlin əlində önəmli faktordur. Azərbaycanın Avropanın enerji təhlükəsizliyində iştirak etməsi isə Rusiyanın əlindəki bu faktorun təsirini ciddi şəkildə zəiflədə bilər. Ona görə də, Kreml Azərbaycana qarşı erməni faktorundan istifadə etməklə təzyiq göstərməyə çalışır. Halbuki, Kremldə də anlayırlar ki, hazırda Azərbaycana təzyiq göstərmək o qədər də effektiv metod deyil. Hər halda, NATO ölkəsi olan Türkiyə ilə hərbi müttəfiqlik münasibətləri Azərbaycanı Rusiyanın təzyiqlərindən qorumaq imkanındadır. Bütün bunları nəzərə aldıqda, Rusiyanın erməni faktoru üzərindən Azərbaycana təzyiq göstərmək cəhdləri hələ bir müddət davam edə bilər. Ermənistan isə Rusiyanın maraqlarında müəyyən dəyişikliklər olduğunu hiss edir. Ona görə də, bu situasiyadan yararlanmağa cəhd göstərir. Rəsmi İrəvan Ermənistan üçün uğursuz geopolitik şərtləri dəyişə biləcəyinə hələ də ümid bəsləyir. Ancaq bu ümidlərin doğrulma ehtimalı demək olar ki, mövcud deyil. Çünki rəsmi Bakı səbri tükənərsə, həm Xankəndi və ətraf bölgədə, həm də Azərbaycan-Ermənistan sərhədlərində davamlı xarakter daşıyan erməni təxribatlarına sarsıdıcı hərbi zərbə ilə cavab verə bilər”.



# Ermənistan bəzi meyit qalıqlarını qaytarıb

## Hazırda onların kimliklərinin müəyyənləşdirilməsi prosesi gedir

**Beynəlxalq Qızıl Xaç Komitəsinin vasitəçiliyi ilə Azərbaycan tərəfinə bəzi meyit qalıqları qaytarılıb, hazırda onların kimliklərinin müəyyənləşdirilməsi prosesi gedir.**

Bunu Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının İşçi qrupu rəhbərinin müavini Eldar Səmədov deyib.

O qeyd edib ki, meyit qalıqlarının sayının nə qədər olacağı ilə bağlı son mərhələdə dəqiq məlumat bilinəcək.

Qalıqların qarışıq verilməsi meyitlərin kütləvi məzarlıqlarda basdırıldığını sübut edir

**Eldar Səmədov deyib ki, Ermənistan tərəfi Azərbaycana meyit qalıqlarını qarışıq verib.**

O bildirib ki, bu, meyitlərin kütləvi məzarlıqlarda basdırıldığını sübut edir: ”Beynəlxalq Qızıl Xaç Komitəsinin vasitəçiliyi ilə Azərbaycan tərəfinə bəzi meyit qalıqları qaytarılsa da, hazırda onların kimliklərinin müəyyənləşdirilməsi prosesi gedir. Meyit qalıqları əsasən, qrunt suları, yeraltı suların keçdiyi ərazilərdən götürülüb. Ona görə də bu meyit qalıqlarından DNT nümunələri əldə etmək çox çətindir. Oradakı meyit qalıqlarının sayının nə qədər olacağı ilə bağlı son mərhələdə dəqiq məlumat olacaq”. (apa)

*Xatırladaq ki, Ermənistanın Baş naziri Nikol Paşinyan parlamentdə deyib ki, son bir ildə Ermənistan Azərbaycan tərəfinə Birinci Qarabağ müharibəsi zamanı itkin düşmüş 108 nəfərin meyitinin qalıqlarını təhvil verib. O, yaxın günlərdə daha 2 meyitin qalığını təhvil verməyə hazırlaşdıqlarını da vurğulayıb.*

İsmayıl Qocayev

**Dövlət başçısı İlham Əliyev İslam İnqilabının Qələbəsi Günü münasibətilə İran Prezidenti Seyid İbrahim Rəisiyə məktub göndərib. Ölkə rəhbəri təbrik məktubunda vurğulayıb ki, Azərbaycanla İran arasında əlaqələr tarixən dostluq və mehriban qonşuluq şəraitində yaşamış, ortaq mənəvi dəyərləri bölüşən xalqlarımızın iradəsindən qaynaqlanır.**



# Tehranın nədən qıcıqlandığı bəllidir

## Səfir ”bəziləri imkan versə” deyərkən İsraili nəzərdə tutur

Prezident vurğulayıb ki, Azərbaycan tərəfi möhkəm təməllər üzərində qurulmuş dövlətlərarası münasibətlərimizə xüsusi önəm verir: ”Bu gün ikitərəfli əlaqələrimizin yüksələn xətt üzrə inkişaf etməsi məmnunluq doğurur. Ali səviyyəli siyasi dialoq, qarşılıqlı səfərlər və müntəzəm görüşlər, imzalanan sənədlər əməkdaşlığımızın möhkəmlənməsinə güclü təkan verir. İqtisadi-ticari, enerji, nəqliyyat və digər sahələrdə qarşılıqlı fəaliyyətimizin çərçivəsinin gündən-günə genişlənməsi bunun bariz nümunəsidir. Aşqabadda Sizinlə qarşılıqlı anlaşma şəraitində keçən görüşümüzü məmnuniyyət hissi ilə xatırlayıram. Hesab edirəm ki, apardığımız ətraflı fikir mübadiləsi və müzakirələr münasibətlərimizin daha da inkişafına və keyfiyyətcə yeni mərhələyə daxil olmasına töhfə verəcəkdir”. Prezident Azərbaycan-İran münasibətlərinin xalqlarımızın mənafelərinə uyğun olaraq birgə səylərlə bundan sonra da inkişaf edəcəyinə və möhkəmlənəcəyinə inamını ifadə edib.

Xatırladaq ki, İranın Azərbaycandakı səfiri Seyid Abbas Musəvi iki ölkə arasındakı münasibətlərdən danışıb. Səfir vurğulayıb ki, İran-Azərbaycan əlaqələrində sıçrayış, inkişaf müşahidə edilir. O bildirib ki, İranın xarici siyasəti qonşularla əlaqələrinin inkişafına əsaslanıb: ”Qonşularla əlaqənin inkişafı bizim xarici siyasətimizin əsas prioritetidir. Azərbaycan və İran prezidentləri Aşqabadda görüşüb və bu görüş faydalı olub. İran prezidentinin Azərbaycan lideri ilə görüşü əlaqələrin inkişafında dönüş nöqtəsi hesab olunur”. Diplomat qeyd edib ki, bəziləri imkan versə, İran-Azərbaycan əməkdaşlığı digərlərinə nümunə ola bilər.

**Cənub qonşumuzla əlaqələrin indiki vəziyyətini ”Şərq”ə təhlil edən AMİP Siyasi Şurasının üzvü, politoloq Əli Orucov bildirib ki, İran Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkələrdən biridir. Partiya rəsmisi deyib ki, Tehranın Azərbaycana dəstəyini zaman-zaman görmüşük:** ”Son dönəmlərdə iki ölkə arasında müəyyən gərginlik müşahidə olunsa da, qısa müddət sonra münasibətlər bərpa olundu. Nəzərə alaq ki, Tehran hökuməti beynəlxalq və regional təşkilatlarda daim Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bəyan edib. Amma bir sıra ölkələr kimi İran da bəzən ikili siyasət yeridir, qısqanclıq nümayiş etdirir. Ara-sıra Azərbaycana qarşı təzyiq siyasətindən də istifadə edir. Xatırlayırsızsa, bir müddət öncə İranın təyyarələri hava məkanımızı pozmuşdu. Türkiyə qırıcılarının sərhəd xəttində həyata keçirdiyi uçuşlardan sonra İran geri addım atdı. 44 günlük müharibədən sonra da İran sərhədlərimiz yaxınlığında ”əzələ nümayiş” etdirdi. Hərbi təlimlərə start verdi, təbliğata başladı, hətta Azərbaycandakı əlaltılarını da işə saldı. Amma Azərbaycanın təmkinli, düşünülmüş cavab addımları sayəsində Tehranın cəhdləri nəticəsiz qaldı. Dövlət başçılarının görüşündən sonra münasibətlərdə yeni mərhələ başladı və əlaqələrdə normallaşma prosesinə qədəm qoyuldu. İranla əməkdaşlıq, daha doğrusu, münasibətlərin bərpası bizim üçün də vacibdir. İranda 35 milyon soydaşımız yaşayır. Onlarla əlaqəmiz, bağımız qırılmamalıdır”.

“Hər bir ölkənin özünə dost seçməsi, başqa dövlətlə əməkdaşlıq etməsi təbii hüququdur. Hansısa üçüncü ölkənin buna müdaxiləsi yolverilməzdir”

**Ə.Orucova görə, İran səfiri ”bəziləri imkan verərsə” deyərkən İsraili nəzərdə tutur:** ”İsrail Azərbaycanla çox ciddi strateji əməkdaşlıq içindədir. Bu ölkənin siyasi, hərbi və mənəvi baxımdan bizə böyük dəstəyi oldu. Qarabağda bərpa-quruculuq işlərində də İsrail yaxından iştirak edir. Tehranın bundan qıcıqlandığı bəllidir, çünki özləri bunu açıqca dilə gətiriblər. Ancaq nəzərə alınmalıdır ki, hər bir ölkənin özünə dost seçməsi, başqa dövlətlə əməkdaşlıq etməsi təbii hüququdur. Hansısa üçüncü ölkənin buna müdaxiləsi yolverilməzdir. Azərbaycan dəfələrlə İranın işğalçı Ermənistanla əməkdaşlığından narazı olduğunu dilə gətirsə də, Tehran bundan vaz keçməyib. Amma indi İranın Azərbaycana münasibəti, ritorikası dəyişib. Azərbaycan regionun güclü ölkəsi olmaqla yanaşı, həm də güclü müttəfiqlərə sahib ölkədir”.

# Bu qədər rayon nəyə gərəkdir?

Deputat: “Bakıda da rayonların sayını azaltmaq lazımdır”

”Məncə, yaxın zamanda paytaxt ərazisində də bununla bağlı dəyişiklik etmək gərəkir”



**Gəncə şəhərinin Nizami və Kəpəz rayonlarının ləğv edilməsi təklif olunur. Bu ”Gəncə şəhərinin inzibati ərazi bölgüsündə qismən dəyişiklik edilməsi haqqında” qanun layihəsində əksini tapıb.**

Dəyişikliklə Nizami və Kəpəz rayonlarındakı inzibati ərazi dairələri Gəncə Şəhər İcra Hakimiyyətinin tabeliyinə verilir. Qanun layihəsi Milli Məclisin Regional məsələlər komitəsinin iclasında da müzakirə olunub.

**Millət vəkili Fazil Mustafa rayonların ləğv edilməsini ”Şərq”ə dəyərləndirərkən deyib ki, proses əhəmiyyətli və zəruridir:** ”Boş-boşuna bir şəhərin içində iki rayon müəyyən etmək hökumətdə iş yeri açmaq kimi bir şeydir. Bu dövlət büdcəsindən əlavə vəsaitin ayrılmasına, beləliklə də prosesin mürəkkəbləşməsinə səbəb olur”.

*F.Mustafanın fikrincə, nəinki Gəncədə, Bakının özündə də rayonların sayını azaltmaq lazımdır:* ”Axı bu qədər rayon nəyə gərəkdir? Hər rayonun da bir icra başçısı, ayrıca bir strukturu var. Məncə, yaxın zamanda paytaxt ərazisində də bununla bağlı dəyişiklik etmək gərəkir”.

**Günəş Mərd**

# Kəskin bahalaşmanın qarşısı alınacaq

## Dövlət Ehtiyatları Agentliyinin yaradılması düzgün qərardır



“Çünki iqtisadi böhranlar zamanı ərzaq təhlükəsizliyi məsələsi daim bir nömrəli risk faktoru yaradır”

**Azərbaycan Respublikası Dövlət Ehtiyatları Agentliyi daxili bazarda ölkənin strateji əhəmiyyətli malları üzrə qısamüddətli kəskin qiymət dəyişmələrinin qarşısını almalıdır.**

Bu, Prezident İlham Əliyevin sərəncamı ilə təsdiqlənən ”Azərbaycan Respublikası Dövlət Ehtiyatları Agentliyinin nizamnaməsi”ndə əksini tapıb.

Nizamnaməyə əsasən, Agentliyin fəaliyyət istiqamətlərindən biri də ölkənin strateji əhəmiyyətli mallarla təchizatının dayanıqlılığının təmin edilməsi və daxili bazarda həmin mallar üzrə qısamüddətli kəskin qiymət dəyişmələrinin qarşısının alınması istiqamətində tədbirlər görməkdir.

Eyni zamanda ölkənin strateji əhəmiyyətli mallarla təchizatının dayanıqlılığının təmin edilməsi və daxili bazarda həmin mallar üzrə qısamüddətli kəskin qiymət dəyişmələrinin qarşısının alınması məqsədilə tədbirlər görmək Agentliyin vəzifələri sırasına daxildir.

**Yeni yaradılan dövlət qurumunun mahiyyəti ilə bağlı ”Şərq”ə danışan iqtisadçı Eldəniz Əmirov Dövlət Ehtiyatları Agentliyinin yaradılması ilə bağlı verilmiş qərarı düzgün hesab etdiyini bildirib.**

”Cənab Prezident eyni zamanda Dövlət Taxıl Fondunu agentliyin sərəncamına verdi. Bununla yanaşı, onu ehtiyatların yaradılması sahəsində dövlət siyasətinin hazırlanmasında və həyata keçirilməsində iştirak edən əsas qurum olaraq müəyyən etdi. Çünki iqtisadi böhranlar zamanı ərzaq təhlükəsizliyi məsələsi daim bir nömrəli risk faktoru yaradır.

Bu agentlik dövlət ehtiyatlarının idarə olunması, nəzarətin həyata keçirilməsi və ölkənin strateji əhəmiyyətli mallarla təchizatının dayanıqlılığının formalaşmasında əsas orqan olacaq. Yəni ərzaq təhlükəsizliyi, ehtiyatların toplanması və idarə olunması sahəsində fəaliyyət göstərəcək. Sərəncamdan da görünür ki, bu, həm də daxili bazarda məhsulların qiymətində kəskin bahalaşmanın qarşısını almaq məqsədi güdür. Bazarda hər hansı məhsul üzrə qıtlıq olanda qiymət artır. Bu hal baş verməsin deyə qıtlığın yaranmasına yol verilməməlidir. Bunun üçün də həmin agentlik ehtiyatlarından nizamlı şəkildə istifadə etməklə bazarda bu vəziyyətin aradan qaldırılması üçün tədbirlər görməlidir. Yəni öz ehtiyatlarını hər hansı formada bazara təklif etməlidir.

Bu proses qiymət artımının qarşısını ala bilər. Ancaq sərəncamda belə bir ifadə var - qısamüddətli kəskin artımlar. Bu o deməkdir ki, sərəncamda qeyd olunanlar bütün hallara aid deyil. Uzunmüddətli, ümumi qiymət artımına heç bir agentlik, qurum mane ola bilməz. Çünki bu, bir çox daxili və xarici faktorlardan asılıdır. Bir agentlik yaradıldı deyə bu, qiymət artımına son qoyuldu demək deyil”.

**Sənan İsmayıl**

# Beyinlər dəyişmir

## Vəzifəyə hələ də varlanmaq kimi baxırlar

**2021-ci ildə Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti Xidməti tərəfindən ümumilikdə 144 nəzarət obyektində aparılmış tədbirlər nəticəsində 103,6 mln. manat məbləğində artıq və əsassız ödənişlərə yol verilməsi aşkar edilib.**



Nəzarət tədbirlərindən 59-u Dövlət Maliyyə Nəzarəti Xidmətinin iş planına əsasən, 77-si Respublika Baş Prokurorluğunun və Dövlət Təhlükəsizlik Xidmətinin qərar və məktublarına, 8-i isə vətəndaş müraciətləri üzrə mərkəzi icra hakimiyyəti orqanlarında, onların tabeli qurumlarında, dövlətə məxsus hüquqi şəxslərdə və bələdiyyə orqanlarında aparılıb.



Həmin qurumların siyahısında XİN, ƏƏSMN, Mədəniyyət Nazirliyi və 3 icra hakimiyyəti orqanının da adı var. Eyni zamanda TƏBİB-in tabeliyində olan bir sıra xəstəxanalarda, Təhsil Nazirliyində, "Azərxalça" ASC-də və digər qurumlarda da bənzər halların olduğu müəyyən edilib.

Xidmət tərəfindən aparılan nəzarət tədbirləri üzrə artıq və əsassız ödənilmiş vəsaitlər məsul vəzifəli şəxslər tərəfindən dövlət büdcəsinə ödənilərək bərpa edilib, prokurorluq və hüquq-mühafizə orqanlarının qərarlarına əsasən aparılan nəzarət tədbirləri ilə aşkar edilən artıq və əsassız ödənişlərin bir hissəsi ibtidai istintaq zamanı təqsirkar şəxslər tərəfindən nağd qaydada dövlət büdcəsinə ödənilməklə bərpa olunub, qalan hissəsinin bərpası isə məhkəmə qərarlarına əsasən, təqsirkar şəxslərin əmlaklarına yönəldilməklə hazırda müvafiq dövlət orqanları tərəfindən davam etdirilir.

### "Kadrların dəyişdirilməsi də problemi həll etməyəcək"

**Dövlət Maliyyə Nəzarəti Xidməti tərəfindən müxtəlif qurumlarda aşkarlanan mənimsəmə halları ilə bağlı "Şərq"ə danışan millət vəkili Razi Nurullayev qeyd edib ki, rüşvətxorlara və korrupsionerlərə qarşı aparılan mübarizə effektiv deyil və qarşısı alına bilmir.**

"Sadəcə metodlar, yanaşmalar dəyişib. Ancaq dövlət vəzifəsinə münasibət dəyişməyib. Bu gün Azərbaycanda ən böyük problem budur. İnsanları, kadrları dəyişdirmək olar. Amma ümumilikdə dövlət postlarına, insanlara qarşı məsuliyyətə münasibət dəyişməsə, bu hallar təkrarlanmağa davam edəcək. Buna görə də, birinci növbədə dövlətçiliyə yanaşma şəkli dəyişməlidir. Dövlət vəzifəsinə varlanmaq üsulu kimi baxılmamalıdır.

Dünyanın bir çox ölkələrində insanları vəzifəyə təyin etmək üçün danışıqlar aparılır. Hətta bir çox bacarıqlı, perspektivli insanlar həmin vəzifələrə getmək istəmirlər. Düşünür ki, mən başqa yerdə daha çox pul qazana bilərəm. Ona sərf etmir. Ancaq bizdə kimə təklif etsən heç imtina etməyəcək. Çünki həmin vəzifədə təkcə əməkhaqqı ilə yox, digər vasitələrlə də varlanma imkanı olacaq. Rüşvət almaq, dövlət büdcəsini öz mənfəəti üçün istifadə etmək fürsəti yaranacaq.

İnsanlar düşünməlidir ki, xidmət etməyə gedir və əmək haqqı alır. Düşünməlidirlər ki, yaxşı işləsə mükafatlar veriləcək, istirahətə pulsuz gedəcək, ailəsinin müalicəsi pulsuz olacaq və s. Bunlar dövlət tərəfindən tam olaraq təmin olunandan sonra onlar vəzifəsinə xidmət üsulu kimi baxsa, rüşvətxorluq olmayacaq. Amma hələ ki, bu yoxdur. Kadrların dəyişdirilməsi də məsələləri həll etməyəcək".

**Sənan İsmayıl**

---

**Almaniyanın Münhen şəhərində fevralın 18-20 arasında ənənəvi təhlükəsizlik konfransı keçiriləcək. Konfransla bağlı ilk xəbər budur ki, 20 il ərzində ilk dəfə Rusiya rəsmi səviyyədə mötəbər tədbirdə təmsil olunmayacaq. Konfransın təşkilatçıları Rusiya Prezidenti Vladimir Putini tədbirə rəsmən dəvət ediblər. Ancaq Putin Münhenə getməyəcək.**



# Putin Münhen konfransına getməyəcək

## Çünki qərbli həmkarlarının Ukrayna suallarına cavab verməyə hazır deyil

**Politoloq Elxan Şahinoğluna görə, bunun səbəblərindən biri budur ki, Qərb ölkələri koronavirusa qarşı Rusiya vaksinlərini tanımırlar. Rusiyalı rəsmilər isə ancaq yerli iynə ilə vaksin olunublar:** "Ancaq bu üzdə olan səbəbdir. Vladimir Putin konfransda qərbli həmkarları qarşısında "Ukraynaya hərbi müdaxilədən imtina edəcəksinizmi" sualına müsbət cavab verməyə hazır deyil. Misal üçün, bu sualı konfransda iştirak edəcək ABŞ-ın vitse-prezidenti Kamalla Haris Putinə verə bilər. Konfransa müxtəlif ölkələrdən 600 nəfər qonaq təşrif buyuracaq. Halbuki, pandemiyaya qədərki konfranslarda iştirak sayı iki minə çatırdı. Buna baxmayaraq, builki konfransda iştirakını təxminən 100 xarici işlər və müdafiə naziri təsdiq edib.

Əslində Vladimir Putin yüksək tribunalardan mesaj verməyi xoşlayan liderdir. Təsadüfi deyil ki, Kreml sahibinin 2007-ci ildə həmin Münhen təhlükəsizlik konfransındakı çıxışı üstündən 15 il keçdikdən sonra da analiz edilir. O zaman Qərb liderləri Putinin çıxışını doğru oxuya bilmədilər. Halbuki, Putin çıxışında ABŞ hegemonluğunu qəbul etməyəcəyini, Rusiyanın yaxın ətrafa şərtlərini diktə edəcəyini vurğulamışdı. Putin dediyini etdi. Bu çıxışdan bir il sonra Gürcüstana hücum edildi, Abxaziya və Cənubi Osetiya nəzarət altına alındı, 6 il sonra Krım ilhaq olundu, Donbassda separatçı bölgə formalaşdı, 15 il sonra isə beynəlxalq aləm Rusiyanın Ukraynaya mümkün müdaxiləsindən danışır".

*E.Şahinoğlu qeyd edib ki, təhlükəsizlik konfransının təşkilatçıları tədbirdə Rusiya təmsilçilərini görməyəcəkləri halda heç olmasa, Çinin iştirakına çalışırlar:* "Çinin Xarici işlər naziri Van İni dəvətlilər arasındadır. Pekin Moskvadan fərqli olaraq hələ ki, konfransda iştirakla bağlı mövqeyini bildirməyib. Əgər Pekin Kremlin xarici və təhlükəsizlik siyasətini dəstəkləyirsə, çinli rəsmilərin konfransda iştirakları sual altında qalacaq. Ancaq əgər Pekin konfransa nümayəndə heyəti göndərərsə, Rusiya ilə strateji tərəfdaşlığına rəğmən, müsbət qərar vermək bacarığını nümayiş etdirəcək. Sadəcə, Çin rəsmiləri də bilirlər ki, onlara da konfransda insan haqları və uyğurlarla bağlı mürəkkəb suallar veriləcək. Pekin bu suallara cavab vermək istəmirsə, konfransda təmsil olunmayacaq".

**İsmayıl**

---



# Atəş səsləri eyni istiqamətdən gəlir

## Ermənistanın şərtləri daha çox Kəlbəcər və Laçınla əlaqəlidir



**Fevralın 11-i Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycan Ordusunun mövqelərini atıcı silahlardan istifadə etməklə atəşkəsi pozublar. Səhər saat 08:50-dən 09:00-a qədər qarşı tərəf Basarkeçər rayonunun Yuxarı Şorca yaşayış məntəqəsindəki mövqelərdən Kəlbəcər rayonunun Zəylik yaşayış məntəqəsində yerləşən mövqelərimiz istiqamətində atəş açılıb.**

Müdafiə Nazirliyindən bildirilib ki, bölmələrimizin cavab tədbirləri nəticəsində qarşı tərəf susdurulub: "Şəxsi heyət və texnikamızda itki yoxdur. Hazırda qeyd olunan istiqamətdə vəziyyət sabitdir, əməliyyat şəraiti bölmələrimizin nəzarəti altındadır".

**Atəşkəsin pozulmasının səbəblərini "Şərq"ə açıqlayan siyasi şərhçi Aqşin Kərimov bildirib ki, Ermənistan ara-sıra atəş açmaqla hirsini atdığı mərmilərlə boşaldır:**

"Kəlbəcərdəki atışmalardan öncə verilən bəyanatın ruhuna baxmaq lazımdır. Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramov elan etdi ki, Ermənistan sərhəd müəyyənləşməsi ilə bağlı yaradılması nəzərdə tutulan ikitərəfli komissiyanın fəaliyyəti barədə Azərbaycana ilkin şərtlərini təqdim edib. Bakı isə şərt qəbul etmir, bunun əksinə öz diktəsini yeridir. Təbii ki, Rusiya və Türkiyə də sərhəd məsələsində Bakıya dəstək verir. Ermənistanın şərtləri daha çox Kəlbəcər və Laçınla əlaqəlidir. İrəvan istəyir ki, Azərbaycan bu ərazilərdən qoşunlarını geri çəksin, daha sonra delimitasiya və demarkasiya prosesi başlasın.

Bu isə mümkün deyil. Qoşunların geri çəkilməsi Ermənistana vaxt verməkdən başqa bir şey olmaz, indi nəinki geri çəkilmək, əksinə, irəli gedərək digər strateji yerlərdə də möhkəmlənmək Bakı üçün hava-su kimi lazımdır.

Hazırda sərhədin Zəngilan və Qubadlı istiqamətində sakitlikdir. Düşünmək olar ki, sərhəd mübahisəsi Zəngilan və Qubadlıda özünün nəzəri və praktiki həllini tapıb. Yəni Azərbaycan istədiyinə nail olub. Son zamanlar sərhədin bu zolağında hər hansı ciddi insident qeydə alınmayıb. Bu göstərir ki, Gorus-Qafan yolunun 21 kilometrinin Azərbaycanın nəzarətində olması, Azərbaycanın bu yolda gömrük və polis postları qoyması Ermənistanın bu zona üzrə müqavimət, lap dəqiq desək, etiraz göstərmək gücü qalmayıb.

Yəni Zəngilan və Qubadlıda Ermənistan təklif edilən sərhəd xəttinə razılıq verib, daha doğrusu, buna məcbur olub. Görünür, bu ərazilər üzrə delimitasiya və demarkasiya prosesi ağrısız keçəcək. Həmin ərazilər üzrə hərbi xidmətin Dövlət Sərhəd Xidmətinə verilməsi də, bunun göstəricisidir.

İndi qalır Kəlbəcər və Laçın - Ermənistan sərhədin bu zolağına düyün vurmaq niyyətindədir. Fikir verək, son iki gündə Ermənistan eyni istiqamətdə atəş açır: Basarkeçər rayonunun Yuxarı Şorca yaşayış məntəqəsində yerləşən mövqelərindən Kəlbəcər rayonunun Zəylik yaşayış məntəqəsində yerləşən Azərbaycan Ordusunun mövqelərini atıcı silahlardan atəşə tutur. Bu da onu göstərir ki, həmin ərazilər üzrə hansısa hərəkətlilik var. Laçın və Kəlbəcər istiqamətlərinə düyün atmaq istəyən Ermənistanın Bakının şərtləri altında razılaşmalar əldə etməsi qaçılmaz hala gəlir".

**Xanlar Əlibəy**

---

# Yeni komanda və idarəçilik gəlir

## İlham Şaban: "İndi Neft Şirkətinin qarşısında tamam başqa vəzifələr qoyulur"

**Ötən gün Prezident İlham Əliyevin imzaladığı sərəncamla Rövnəq İbrahim oğlu Abdullayev Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti vəzifəsindən azad edilib.**



"Dövlət SOCAR-ın ölkə iqtisadiyyatındakı rolunu kifayət qədər düzgün qiymətləndirərək çox asta addımlarla bu şirkəti yeni yola salmağa çalışır"

Dövlət başçısının digər sərəncamı ilə Rövşən Çingiz oğlu Nəcəf Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti təyin edilib.

**SOCAR-da baş verən kadr dəyişikliyi ilə bağlı "Şərq"ə danışan iqtisadçı İlham Şaban bildirib ki, Dövlət Neft Şirkətində islahatlara 23 yanvar 2021-ci il fərmanı ilə start verilib:** "O zaman da deyilib ki, indiyə qədər mövcud olmuş Dövlət Neft Şirkəti artıq mövcud olmayacaq. Çünki Müşahidə Şurası, Azərbaycan İnvestisiya Holdinqi kimi bir sıra yeni qurumlar yarandı. 2005-ci ildə Rövnəq Abdullayev Dövlət Neft Şirkətinə prezident təyin ediləndə Dövlət Neft Şirkətinin missiyası tamam fərqli idi. Bu dövrdə şirkətin qarşısına böyük neft gəlirləri zamanı ölkə daxilində olan neft-qaz şirkətlərinin ölkə sərhədlərini aşması, ölkənin daxilindəki neft-qaz layihələrində aktiv oyunçuya çevrilməsi və s. kimi vəzifələr qoyulmuşdu. 15 ildən az müddət ərzində şirkət bu vəzifələri həyata keçirdi".

**İ.Şaban şirkətin hazırkı missiyalarından da söz açıb:**

"İndi isə şirkətin qarşısında tamam başqa vəzifələr qoyulur. 19-cu əsrdə işlənməyə başlayan neft yataqları var və hələ də fəaliyyətinə davam edir. Onlar artıq tükənmək üzrədir. Elə yataqlar ki, artıq tükənib. Yəni bu şirkət artıq əsas ehtiyatları - neft-qaz yataqları tükənməyə doğru gedən şirkətdir. Bu şəraitdə Azərbaycanın iqtisadiyyatında önəmli rol oynayan bir şirkətin əlavə dəyər yaradan şirkətə çevrilməsi yolunda islahatlar aparılır. Bax, bu dəyişikliklər onun təzahürüdür. Hazırda yeni komanda və idarəçilik gəlir. Bütün bunlar da bilirik ki, bir fərmanla həyata keçmir. Dövlət SOCAR-ın ölkə iqtisadiyyatındakı rolunu kifayət qədər düzgün qiymətləndirərək çox asta addımlarla bu şirkəti yeni yola salmağa çalışır. Təbii ki, bütün bunlar qısa müddətdə baş verən məsələlər deyil. Çünki dünyanın nəhəng şirkətləri bir neçə ildir bu keçidin üzərində çalışırlar. Nə zaman real olaraq başa çatacağı məlum deyil. O cümlədən də biz dünyada baş verənlərdən geridə qalmayaraq bu addımları atırıq. Nəticəsini təbii ki, bir müddət sonra onun fəaliyyətində, iqtisadi və maliyyə göstəricilərində görəcəyik".

**Çimnaz Şahlar**

---

# Kreml Ermənistana öhdəliklərini xatırlatmaq istəmir

## Məzar yerləri ilə bağlı məlumatlar verilsə, Rusiyanın da əsl üzünü görəcəyik

**Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova həftəlik brifinqdə Azərbaycanın 8 erməni hərbçisini Ermənistana təhvil verməsindən danışıb. O, rəsmi Bakının addımını alqışlayıb:**

"Ermənistan-Azərbaycan münasibətlərindəki problemli məsələnin tezliklə aradan qaldırılması və məhbusların "hamı üçün" formuluna uyğun olaraq mübadiləsinin başa çatdırılması vacibdir".

Qeyd edək ki, Rusiya Ermənistanla bağlı daim öz mövqeyini açıq şəkildə bəyan edib. Azərbaycanın müsbət addım atması rəsmi Moskvanın alqışına səbəb olub. Lakin rəsmi İrəvanın öhdəliklərindən boyun qaçırmasına Kreml heç bir reaksiya vermir. Ermənistan isə hələ də məsuliyyətdən yayınır, 10 noyabr və 11 yanvarda imza atdığı sənədlərin tələblərini yerinə yetirmir.

**Mövzu ilə bağlı "Şərq"ə münasibət bildirən siyasi elmlər doktoru Sabir Məmmədli Rusiyanın həmişə Ermənistan tərəfdən çıxış etdiyini bildirib:** "Müharibədən əvvəl də, sonra da Rusiya rəsmi İrəvanı dəstəkləyib. Sözsüz, Ermənistanın xeyrinə hər hansı bir addım atılması Kreml rəhbərliyinin ürəyincədir. Ona görə, 8 erməni hərbçinin qaytarılması yanlış deyil, pozitiv addım kimi qiymətləndirilib. Təbii ki, terrorçuların qaytarılması Rusiyanın maraqlarına uyğundur".

Professorun sözlərinə görə, Rusiya heç vaxt Azərbaycanla bağlı müsbət bir addım atılmasını alqışlamayıb: "Zaxarova da heç dilə gətirmir ki, Ermənistan Birinci Qarabağ müharibəsində itkin düşmüş şəxslərin və ya kütləvi məzarlıqların koordinatlarının verilməsinə dair öhdəlik götürüb. Lakin ortada real addımlar yoxdur. Rəsmi Moskva da bunu dilə gətirmir. Əslində, Rusiya bizi daim sıxışdırmağa və əl-qolumuzu bağlamağa çalışıb. Bu, həm hərbi, həm diplomatik gedişatlarda özünü büruzə verib".



*S.Məmmədli vurğulayır ki, Ermənistan öz öhdəliyinə əməl etsə, müəyyən nüanslar üzə çıxacaq:* "Nəzərə almaq lazımdır ki, 8 erməni hərbçinin geri qaytarılması Avropa İttifaqı rəsmilərinin təşəbbüsü ilə həyata keçirilib. Ermənistanın öhdəliyi yerinə yetirməsi birbaşa Birinci Qarabağ müharibəsi zamanı baş verən kütləvi qırğın faktlarını geniş şəkildə üzə çıxarmağa kömək olacaq. Ehtimal odur ki, rus hərbçilərinin dinc əhaliyə qarşı törədilən vəhşiliklərdə iştirakı istisna deyil. 366-cı alayın nümayəndəsilə birlikdə rus və Orta Asiya millətləri də iştirak edib. Hətta qırğından qabaq 3 qazax və 3 qırğız hərbçi qaçıb. Ermənistan məzarların yerlərilə bağlı məlumatları versə, biz bütün bu hadisələri dərin şəkildə tətbiq edəcəyik. Rusiyanın da əsl üzünü göstərmiş olacağıq".

**Cəmilə Əzim**

# Türkiyə sülh razılaşmasını gözləyəcək



## Hulusi Kılıç: "Qısa zamanda Ankara və İrəvan arasında nəticə əldə olunacağını zənn etmirəm"

**Türkiyə Respublikasının vitse-prezidenti Fuat Oktay Ermənistanla münasibətlərin normallaşmasından danışıb. O deyib ki, Türkiyənin Azərbaycan torpaqlarının işğalına göz yumması mümkün deyildi. F.Oktay qeyd edib ki, problemin həlli əslində Ermənistan xalqının da xeyrinədir. Türkiyə rəsmisi bildirib ki, Ermənistanla münasibətlərin normallaşmasından hər iki ölkə qazanacaq.**

Xatırladaq ki, fevralın 24-də Vyanada Türkiyə və Ermənistan xüsusi nümayəndələrinin ikinci görüşü keçiriləcək. İkinci görüşdə bir sıra məqamlarla bağlı müzakirələrin aparılacağı deyilir. Ermənistan XİN rəhbəri Ararat Mirzoyan Vyana görüşündə sərhədlərin açılmasının və diplomatik əlaqələrin bərpasının müzakirə olunmasını istədiklərini açıqlayıb.

**Türkiyənin Azərbaycandakı sabiq səfiri, "İMZA" Sosial İnkişafa Dəstək İctimai Birliyinin Türkiyə təmsilçisi Hulusi Kılıç deyib ki, Ankara-İrəvan arasındakı normallaşma prosesi tərəflərin xüsusi nümayəndə təyin etməsi ilə başlayıb. Keçmiş səfir xatırladıb ki, görüş məkanının Vyana olmasını Ermənistan xahiş edib. Türkiyə də buna qarşı çıxmayıb:** "Əslində Türkiyənin gözləntisi hansısa üçüncü tərəf, vasitəçi olmadan birbaşa təmasların qurulmasıdır. Türkiyə tərəfi hesab edir ki, görüşlər Ankarada, İrəvanda olsa, daha məqsədəuyğun olar. Amma indiki halda rəsmi Ankara Türkiyə-Ermənistan arasında vasitəçilərin olmasını, görüş məkanlarını problem etmir. Çalışır ki, proses irəliyə doğru getsin. Ermənistanla münasibətlərin bərpası prosesində Ankara ilə Bakı arasında koordinasiya var. Türkiyə tərəfi Azərbaycanın istəmədiyi heç bir addımı atmayacaq. Rəsmi Bakı masada olmasa belə Azərbaycanın tələbləri hər zaman diqqətə alınacaq. Azərbaycan rəhbərliyi region ölkələri arasında münasibətlərin qurulmasının, əməkdaşlığın inkişaf etdirilməsinin tərəfdarıdır. Rəsmi Bakı yeni reallıqlar çərçivəsində qonşuluq əlaqələrinin qurulmasını istəyir. Azərbaycan və Türkiyə Ermənistana şans verir, müəyyən addımlarla jest edir. İlkin təmaslar hər hansı şərt irəli sürülmədən davam etdirilir. Əlbəttə, saxta "soyqırım" və ərazi iddiaları Türkiyənin qətiyyən qəbul etməyəcəyi məsələlərdir. Ermənistan tərəfi də bunları dilə gətirmir".

**H.Kılıç vurğulayıb ki, Ermənistan Türkiyə ilə sərhədlərinin tezliklə açılmasını arzulayır:** "Türkiyə Ermənistanla sərhədləri 1993-cü ildə Azərbaycan ərazilərinin işğal edilməsinə görə qapadıb və 29 ildir sərhədlər bağlıdır. Bunun bənzəri heç bir ölkədə yoxdur. Heç kim başqa bir dövlətə görə üçüncü ölkə ilə sərhədlərini bağlamaz. Bu da Azərbaycan-Türkiyə qardaşlığının nə qədər möhkəm, dərin və önəmli olduğuna dəlalət edir".

**Sabiq səfirin fikrincə, Ermənistan-Türkiyə arasındakı müzakirələrin qısa zamanda nəticə verib-verməyəcəyini zaman göstərəcək:** "Amma prosesin çox mürəkkəb olduğunu vurğulamaq lazımdır. Uzun illərdir iki ölkə arasında əlaqələr yoxdur. O baxımdan qısa zamanda nəticə əldə olunacağını zənn etmirəm. Prosesin gedişində Azərbaycanla Ermənistan arasında imzalanacaq yekun sülh müqaviləsi də əsaslı rol oynayacaq. Kimin nə deməsindən asılı olmayaraq, Türkiyə belə bir anlaşmanın imzalanmasını gözləyəcək. Ermənistan sülh razılaşması üçün bir an öncə masaya əyləşməlidir. Cənubi Qafqaz bölgəsində əmin-amanlığın bərpa olunmasının vaxtı çoxdan çatıb. Region ölkələrinin və xalqlarının tezliklə savaş psixologiyasından xilas olması vacibdir. Əgər Ermənistanla Azərbaycan arasında əhatəli sülh müqaviləsi imzalanarsa, Türkiyə irəliyə doğru addım atar".

İsmayıl Qocayev

# Ermənilər boş dayanmırlar!



## Elnur Eltürk: "Vikipediya"nın digər dil bölmələrində fəallığı artırmalıyıq"

**"Vikipediya" dünyanın ilkin məlumat mənbəyi kimi istifadə etdiyi internet şəbəkəsidir. 2001-ci ildə yaradılan azad onlayn ensiklopediyadır. Hər bir internet istifadəçisi Vikipediyaya məlumat yerləşdirə bilər. Lakin Azərbaycanla bağlı məlumatlarda əskikliklər, informasiya azlığı nəzərə çarpır.**

İkinci Qarabağ müharibəsi ərəfəsində, əvvəl və sonra da erməni qüvvələri yenə də "Vikipediya"da fəallıq göstərirlər. Azərbaycana münasibətdə qərəzli yanaşma bəsləyirlər. Ermənilərin daim özününküləşdirməyə çalışdıqları Qarabağın işğaldan azad edilməsi, onun tarixinin yenidən öyrənilməsi zərurətini artırır. Mütəxəssislər deyirlər ki, buradan bəzən siyasi məqsədlər üçün də istifadə olunur.

**Mövzu ilə bağlı "Şərq"ə açıqlama verən diaspor üzrə araşdırmaçı-ekspert, "Vikipediya" üzrə mütəxəssis Elnur Eltürk bildirib ki, "Vikipediya"da dövlət dəstəyi anlayışı yoxdur:** "Dövlətin onu dəstəkləməsi məsələsi Vikipediya Fondu tərəfindən də başqa məna yaradır. Bu məsələdə ehtiyatlı davranmaq lazımdır. Müəyyən stimullaşdırıcı addımların atılması labüddür. Xüsusilə, akademik və elmi dairələrlə əməkdaşlıq edərək, "Vikipediya"nın inkişafına nail olmaq mümkündür. Ali təhsil ocaqlarının prosesə qoşulması, işi daha da irəli aparır. Ölkənin intellektual kəsiminin prosesə dəstək verməsi istədiyimiz kimi nəticələnə bilər. "Vikipediya" bilik, elm və düşüncə platformasıdır.

Bu gün sözügedən istiqamətdə yetərincə qruplar fəaliyyət göstərir. Mərkəzi Elmi Kitabxanada könüllü "viki" qrupun, Azərbaycan Vikipediya İcması, "Qorqud" Vikipediya Metodik Klubunun könüllü və ekspertləri ölkədə "Vikipediya"nın zənginləşdirilməsində böyük rol oynayır".

*Ekspertin sözlərinə görə, erməni istifadəçilər də boş dayanmırlar:* "Onlar fəaliyyətlərini gücləndirməyə çalışırlar. Bu gün biz fəaliyyətimizi hansısa dil bölməsi ilə müqayisə etməməliyik. Çalışıb keyfiyyətli, məzmunlu və akademik məqalələrin yaradılmasına müvəffəq olmalıyıq. Azərbaycan dil bölməsi kifayət qədər inkişaf etmədədir. Müxtəlif mövzular ətrafında məqalələr yaradılır. Biz nəinki, Azərbaycan dil bölməsində, çalışıb "Vikipediya"nın digər dil bölmələrində fəallığı artırmalı, elmi, akademik mövqeyimizi müdafiə edən mənbələrlə işləməliyik. Dünyanın nüfuzlu jurnallarında Azərbaycana aid məqalələrin çap olunması ilə əldə etməliyik. Həmin mənbələr könüllülərin müzakirələrdə mövqelərinin güclənməsinə təkan verəcək".

Aygün Tahir



# Vyana görüşündən gözləntilər çoxdur

## Cümşüd Nuriyev: "Ermənistan Türkiyə və Azərbaycanla sülh müqaviləsi imzalamalıdır"

**Ermənistan İrəvan və Ankaranın xüsusi nümayəndələri Ruben Rubinyan və Serdar Kılıçın fevralın 24-də Vyanada aparacaqları danışıqlarda diplomatik münasibətlərin qurulması və sərhədlərin açılması məsələsini müzakirə edəcəklərini gözləyir.**

Bunu çərşənbə günü parlamentdəki "hökumət saatı"nda Ermənistanın Xarici işlər naziri Ararat Mirzoyan bildirib. O vurğulayıb ki, özünün Antalyadakı diplomatik forumda iştirakı məsələsi daha çox Vyanada keçiriləcək danışıqların nəticəsindən asılıdır.

Qeyd edək ki, tərəflərin ilk görüşü yanvarın 14-də Moskvada reallaşıb.

**Yaxın zamanda baş tutacaq danışıqları "Şərq"ə şərh edən siyasi elmlər doktoru, professor Cümşüd Nuriyev bu təmasın böyük önəm daşıdığını vurğulayıb. O qeyd edib ki, Vyanada baş tutacaq görüş həm Ermənistan, həm Türkiyə, həm də Azərbaycan üçün böyük siyasi məna daşıyır:** "Bu ölkələr, xüsusilə, Türkiyə və Ermənistan yüz ildən çoxdur ki, qarşıdurma vəziyyətindədir. Azərbaycan-Ermənistan münasibətləri isə son 35 ildə daha da gərginləşib. Bu yaxınlaşma bu tip siyasi münaqişələri bir növ səngidəcək. Ermənistan Azərbaycan və Türkiyəyə qarşı ərazi iddiaları ilə çıxış edib. Eyni zamanda, bunu öz konstitusiyasında göstərib. Yəni bu cür görüşlər həmin məsələlərin siyasi müstəvidən qanuni müstəviyə keçəcəyinə və həll olunacağına dəlalət edir".

**Professorun qənaətincə, bu görüş Ermənistanın Türkiyəyə qarşı əsassız soyqırım iddialarına da təsir göstərəcək:**

"Ermənistan 107 ildir ki, Türkiyəyə qarşı saxta soyqırımı haqqında iddialarla çıxış edir. Ermənistan bu barədə dünya dövlətlərinə müraciət edir. 1965-ci ildə ilk dəfə Uruqvay bu soyqırımı tanıyıb. Ondan sonra təxminən 17 dövlət bu və ya digər formada Türkiyəni soyqırımında ittiham edib. Amma bunun hüquqi nəticəsi yoxdur. Bu məsələ də aradan qalxacaq".

C.Nuriyev sözügedən görüşdə öz həllini tapa biləcək məsələləri sadalayıb: "Ermənistan Türkiyə və Azərbaycanla sülh müqaviləsi imzalamalıdır. Torpaqların delimitasiya, demarkasiyası və sərhədlərin tanınması məsələləri var ki, bunlar Azərbaycan üçün birmənalı şəkildə həll olunmalıdır. Zəngəzur dəhlizi də bu üç ölkənin marağı dairəsində olan məsələdir. Ölkələr arasında sərhədyanı ticarət mərkəzi açıla bilər. Xüsusən, bu, Naxçıvan üçün böyük önəm daşıyır. Naxçıvan elə bir bölgədir ki, Ermənistan, Türkiyə, İranla sərhəddir. Əgər Naxçıvan azad iqtisadi zona elan olunsa, çox sürətlə inkişaf edər. Naxçıvanın buna ehtiyacı var. Gələcəkdə Azərbaycan resurslarını Naxçıvan üzərindən dünya bazarına çıxarmaq layihələrini qəbul edə bilərik. Bu da bizim üçün çox mühüm məsələdir. Həm də Azərbaycan və Türkiyənin qoşulduğu "3+3 platforması"na siyasi töhfə olacaq. Yəni bu görüşün nəticələrindən çox şey asılıdır. İnanıram ki, bu görüşlərdən sonra həm Ermənistanın Türkiyədə, həm də Azərbaycanda ən azı nümayəndəliyi açıla bilər. Pakistan, Səudiyyə Ərəbistanı və Azərbaycanı dəstəkləyən digər ölkələr hələ Ermənistanı müstəqil dövlət kimi tanımayıb. Bu Ermənistan üçün də çox vacib problemdir. Diplomatik nümayəndəliyin açılması Ermənistan üçün yeni iş yerləri, yeni gəlir mənbəyidir. Bütün bunların hamısını rəsmi İrəvan nəzərə almalıdır ki, Azərbaycanın və Türkiyənin belə şeylərə ehtiyacı yoxdur. Amma istəyirik ki, qonşu dövlətlərlə hər hansısa problemimiz olmasın. Artıq "Dağlıq Qarabağ" adlı münaqişə yoxdur, tarixin arxivinə qovuşub. Qarabağda yaşayan ermənilər də, necə Bakıda 30 min erməni yaşayır, qoy 30 mini də orada yaşasın. Biz bunun əleyhinə deyilik. Amma yalnız Azərbaycanın qanunları çərçivəsində bu baş tuta bilər. Təbii ki, birinci görüşdə bu məsələlərin hamısı həll olunmayacaq".

**C.Nuriyev toplantının Vyanada keçirilməsini uğurlu və əhəmiyyətli hesab edir:** "Görüşün Vyanada keçirilməsi daha çox məsələnin müzakirə olunmasına səbəb olacaq. Bilirsiniz ki, Moskvada keçirilən görüşdə Rusiya Ermənistana çox güclü siyasi təzyiq göstərirdi. Amma Vyanada Rusiyanın elə təzyiq rıçaqlarının olacağına inanmıram. Orada çox maraqlı məsələlər müzakirə oluna bilər və bunun çox müsbət diplomatik nəticələrinin olacağına da inanıram".

Çimnaz Şahlar

# "İran həmişə Azərbaycan adlı bir dövlətin olmasından qorxub"

## "Farslar tarix boyu ad dəyişmək siyasətindən bilərək əl çəkmirlər"



**"Azərbaycan torpağı olan Şuşanın adını hansısa küçədə yanlış olaraq "Şuşi" kimi qeyd etmək, sözsüz ki, hər iki ölkənin xalqı tərəfindən xoş qarşılanmır". "Report" xəbər verir ki, bunu Azərbaycanın İrandakı səfiri Əli Əlizadə İranın "IRIB" xəbər agentliyinə müsahibəsində bu ölkədə küçələrdən birinə "Şuşi" adının verilməsinə münasibət bildirərkən söyləyib.**

"Bu cür yanlışlıqlara yol verilməsi mənfi presedent yarada bilər. Gərək bunlara diqqət edib həssas məsələlərdə bir-birilərimizin fikirlərini nəzərə alaq" deyə səfir vurğulayıb. Xatırladaq ki, ötən ilin noyabr ayında Tehran meriyası şəhərdəki bir sıra küçələrin adlarına Azərbaycanın şəhər adlarının təhrif edilmiş Bakı yerinə "Badikübə", Şuşa yerinə "Şuşi" formasında adlar qoyub. Buna etiraz olaraq soydaşlarımız həmin küçə lövhələrini silərək üzərində "Azərbaycan" yazıblar.

Qeyd edək ki, küçələrin adlarına hələ də düzəliş edilməyib.

**Mövzu ilə bağlı "Şərq"ə açıqlama verən Güney Azərbaycan Demokratik Türk Birliyinin rəhbəri Əjdər Tağızadə Azərbaycan dövlətinə qarşı farsların həmişə bu cür siyasət yürütdüyünü bildirib:** "İllərdir, bunu görürük. Sovet dönəmində və ondan sonrakı vaxtlarda da öz məkrli siyasətlərindən əl çəkməyiblər. Sovet sisteminin dağılanda siyasətçilər belə düşündü ki, ruslar buradan artıq gedir və əlverişli şərait yaranacaq. Azərbaycan müstəqil olandan sonra bir çox ölkələr onun suverenliyini qəbul etdi. İran isə son zamanlara qədər rəsmi yazışmalarda "Azərbaycan Cümhuriyyəti" demirdi. Sənin adın qondarma addır, 1935-ci ildə "Qacar" adını dəyişib "İran" qoydunuz. Azərbaycan adlı bir dövlətin olmasına həmişə qarşı olublar. Qorxuları Güney Azərbaycanda 40 milyon türklə bağlıdır".

Ə.Tağızadə diqqətə çatdırıb ki, farslar həmişə ermənilərə kömək edib: "Keçən ilin sonlarında Arazın kənarına qoşun yerləşdirdilər. Bizi hədələdilər ki, Bakını "vura" bilərlər. Axırda da suları süzülə-süzülə geri döndülər. Gördülər ki, Arazın hər iki tərəfindən insanlar səslərini çıxardı, ordumuz, dövlətimiz ermənini cəzalandırdı. Ermənilər icazələri olmadan Azərbaycanın işğal altında olan ərazilərində baraj, sədd qurdular. Prezidentimiz demiş, onlar terrorçudular. 44 günlük Vətən müharibəsindən sonra Laçın dəhlizindən Ermənistana, oradan Azərbaycana, Xankəndiyə keçirdilər. Azərbaycan hakimiyyəti reaksiya verəndən sonra elə davrandılar ki, guya yanlış mövqeləri dəyişib. Amma gördük ki, eyni beyindədilər. 97 ildir ki, qafaları belə formalaşıb. Bakıda ermənilərin əlaltıları vardı. Lakin çox az fəaliyyət göstərə bilirdilər. Buna görə də, yandaşlarına mesaj vermək üçün Azərbaycan adlarını dəyişirdilər".

Birliyin rəhbəri İrandakı soydaşlarımızın vəziyyətindən bəhs edib: "Dilləri əllərindən alınıb. Təbriz Qəzvin, Həmədan və başqa yerlərdə dedilər ki, Tehran bölündü, biz iş istəyirik, pul istəyirik. Sonra İran deyir ki, bu qüvvələrin arxasında Azərbaycan və Türkiyə var. Vətəndaş adicə çörək istəyir. Sən heç onu vermirsən, konstitusiyana düzəliş etmirsən".

Ə.Tağızadə qeyd edib ki, farslar tarix boyu ad dəyişmək siyasətindən bilərək əl çəkmir: "Bir adı dəyişmək nədir ki? Biləək dəyişmirlər. Çox kiçik görünürlər. Bunların bir istəyi var ki, isimləri dəyişib fərqli adlar qoysunlar, saxta tarixlər yazsınlar, farslaşdırma siyasəti aparsınlar. 44 günlük Vətən müharibəsində ümid edirdilər ki, Rusiya Azərbaycana girib savaşacaq. Ordumuzun öz torpaqlarında hərəkət etməsinə mane olurdular. Min cür hiylə ilə millət arasına nifaq toxumu səpirdilər. Həm şimal, həm də cənubi Azərbaycan ayıqdır. Onların oyunlarına getməz".

Cəmilə Əzim

### Natiq Cəfərli: "Ayrıca dövlət ipoteka bankının yaradılması daha məqsədəuyğun olar"

**Milli Məclisin deputatı Vüqar Bayramov güzəştli ipoteka verilən zaman bəzi kateqoriyadan olan vətəndaşlar üçün 10 faizlik ilkin ödənişin subsidiya edilməsi təklifi ilə çıxış edib. V.Bayramov diqqətə çatdırıb ki, 10 faizlik ilkin ödəniş ləğv və ya subsidiya edilə bilər:**

"Güzəştli ipoteka kreditləri maksimum 100 min manat məbləğdə 30 il müddətinə və 4 faiz dərəcəsi ilə təklif edilir. Bu kreditlər üçün minimal ilkin ödəniş 10 faizdir. Nəzərə alsaq ki, güzəştli ipoteka götürən vətəndaşlarımız xüsusi dəstəyə ehtiyacı olan kateqoriyadır, təklif edirik ki, bəzi vətəndaşlarımız üçün güzəştli ipoteka kreditləri subsidiya olunsun. Xüsusən də jurnalistlərin, orta məktəbdə çalışan müəllimlərin əmək haqqları yüksək deyil. Bunun fonunda sosial ipoteka götürmək üçün ilkin ödəniş onlara ən böyük əngəl yaradır. Ona görə də həmin vətəndaşlar üçün güzəştli ipoteka krediti götürən zaman 10 faiz ilkin ödəniş İpoteka və Kredit Zəmanət Fondu subsidiya tətbiq edə bilər.

Deputat qeyd edib ki, belə olduğu halda vətəndaş ilkin ödəniş etmədən kredit götürüb, mənzili almaq imkanına malik ola bilər: "Bu güzəştin reallaşması insanların güzəştli ipoteka kreditindən daha çox faydalanmasına gətirib çıxarar. Kreditlərə əlçatanlığı artıra bilər. Bununla bağlı təkliflər artıq hökumətə təqdim edilib".

# Evsizlik gənc ailələrin dağılmasına səbəb olur

## İqtisadçı deyib ki, sosial ipoteka ilə mənzilə çıxış imkanları çox məhduddur



**Təklif barədə fikirlərini "Şərq"ə bölüşən REAL Partiyasının sədr müavini, iqtisadçı-ekspert Natiq Cəfərli bildirib ki, Azərbaycanda ipotekanın əlçatanlığını artırmaqla bağlı qərarların verilməsinə ehtiyac var:** "Bəlkə də ayrıca bir ipoteka bankının yaradılması daha məqsədəuyğundur. Çünki sosial ipoteka ilə mənzilə çıxış imkanları çox məhduddur. İl ərzində bir neçə yüz mənzil ancaq güzəştli ipoteka vasitəsilə satışa çıxarılır. İnsanlar bəzən illərlə növbə gözləməyə məcbur qalır. Ona görə də ipoteka siyasətinin özü sosiallaşdırılmalıdır. Sosial siyasətin tərkib hissəsinə çevrilməlidir. Mənzilə çıxış imkanları asanlaşdırılmalıdır".

*İqtisadçı ümumilikdə ipoteka siyasətinin dəyişdirilməsinə, yenidən tənzimlənməsinə, sadələşdirilməsinə ehtiyac olduğunu vurğulayıb:*

"Çünki ipoteka ehtiyacı həddindən artıq yüksəkdir. Gənc ailələr uzun illər evsiz qalırlar. Bu, psixoloji, sosial problemlərə səbəb olur. Daha ciddi narahatlıqlar doğurur. Ailələrin dağılmasına şərait yaradır. Fərqli kateqoriyalı insanlara cüzi güzəştlərin tətbiq edilməyindənsə, ayrıca dövlət ipoteka bankının yaradılması və mənzilə çıxış imkanlarının kifayət qədər sadələşdirilməsi zəruridir. Bu da həm mənzil bazarının tikinti sektorunun canlanmasına, həm də vətəndaşların sosial problemlərinin həllinə kömək ola bilər".

Sücayət Mehti

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**İnformasiya və kommunikasiya texnologiyalarının inkişafı**



# SİMA imzası rəqəmsallaşmanı xeyli sürətləndirəcək

## Cəmi bir dəfə qeydiyyatdan keçməklə vətəndaş böyük rəqəmsal imkanlar əldə edə biləcək

**Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində fəaliyyət göstərən "AzInTelecom" MMC dövlət-özəl tərəfdaşlığı çərçivəsində "SVORT" və "Sinam" şirkətləri ilə birgə SİMA adı altında bulud əsaslı yeni nəsil rəqəmsal imza hazırlayıb.**

Bununla əlaqədar fevralın 11-də rəsmi şəxslərin, tərəfdaş şirkətlərin, KİV və ictimaiyyət nümayəndələrinin iştirakı ilə yeni imzanın ilkin versiyasının təqdimat mərasimi keçirilib. Bulud əsaslı yeni nəsil rəqəmsal imzanın üstünlükləri, eləcə də imzanın yaradılması zamanı istifadə olunan texnologiyalar haqqında geniş məlumat verilib. SİMA-nın biznes həlləri, o cümlədən brend daşıyıcıları iştirakçılara təqdim olunub. Rəqəmsal inkişaf və nəqliyyat nazirinin müşaviri Rəşad Bayramov çıxışında ölkəmizdə rəqəmsal transformasiya ilə bağlı həyata keçirilən layihələrə toxunaraq bildirib ki, SİMA görülən işlərin tərkib hissəsidir. Müşavir qeyd edib ki, yeni imza vasitəsilə elektron hökumət xidmətləri, həmçinin bank, bank olmayan kredit təşkilatları (BOKT), sığorta, mobil operatorlar, elektronika, məişət, TV və internet provayderlər, bir sözlə, elektron imza tətbiq olunan bütün sahələr üzrə xidmətlər, eləcə də məhsullar əldə etmək mümkün olacaq. Rəşad Bayramov yeni yaradılan məhsulun Azərbaycanda rəqəmsal transformasiyanı sürətləndirəcəyini, onlayn xidmətlərdən istifadəni təşviq edəcəyini deyib. "AzInTelecom" MMC-nin idarə heyətinin sədri vəzifəsini müvəqqəti icra edən Elxan Əzizov yaxın zamanda vətəndaşların istifadəsinə veriləcək SİMA-nın hər kəs üçün əlçatan olacağını deyib. Elxan Əzizov bildirib ki, mobil tətbiq vasitəsilə işləyən SİMA-nı mobil cihaza endirmək və bir dəfə qeydiyyatdan keçmək kifayətdir. Məhsulun innovativliyinə toxunan qurum rəhbəri əlavə edib ki, SİMA rəqəmsal transformasiyanın bütün qollarını - dövlət, əhali və biznes istiqamətlərini əhatə edir. "AzInTelecom"un kommersiya direktoru Ruslan Əliyev yeni məhsulla bağlı geniş məlumat verib. R.Əliyev bildirib ki, üztanıma, "açıq açar" və bulud texnologiyalarını özündə birləşdirən SİMA biometrik autentifikasiyaya əsaslanır. İstifadəçinin mobil tətbiqlə skan etdiyi şəxsiyyət vəsiqəsinin həmin şəxsə dırır. R.Əliyevin sözlərinə görə, yeni nəsil rəqəmsal imzaya biometrik məlumatların və bulud texnologiyalarının vasitəsilə əməliyyatların aparılması kimi imkanlar inteqrasiya olunub.

"Bu mobil tətbiq vasitəsilə istənilən vətəndaş evdən çıxmadan istənilən rəqəmsal imzanı, eləcə də bank və qeyri-bank təşkilatlarının, digər strukturların xidmətlərini əldə edə bilər", - deyə o bildirib. Tədbirdə yeni nəsil rəqəmsal imzanın əldə edilmə proseduru canlı şəkildə nümayiş olunub. "SINAM" IT şirkətinin prezidenti Elçin Əliyev qeyd edib ki, Azərbaycanda rəqəmsal imza bütün sahələrdə istifadə olunur, texnologiyaların inkişafı isə yeni standartlar tələb edir: "Ona görə də biz Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, "AzInTelecom" və SVORT şirkəti ilə birgə dünya standartlarına cavab verən yeni nəsil rəqəmsal imza hazırlamışıq. Son 20 il ərzində biz dövlət-özəl tərəfdaşlığı çərçivəsində bu layihənin inkişafı üzərində işləmişik. Bu il SİMA yeni nəsil rəqəmsal imza layihəsinə "Face to Pay" üz cizgilərindən istifadə etməklə ödəniş imkanını inteqrasiya etmək də planlaşdırılır.

aid olub-olmadığı test edilir. Test əməliyyatı mobil cihazın veb-kamerası vasitəsilə üztanıma əsasında canlı şəkildə həyata keçirilir. Şəxsiyyət vəsiqəsindəki məlumatlar həmin şəxsə aid olduqda istifadəçiyə imza sertifikatı təqdim edilir, əks halda isə sorğuya imtina cavabı verilir. Qeyd olunub ki, SİMA-nın həm vətəndaşlar, həm də xidmət təklif edənlər üçün bir sıra üstünlükləri var. Bunlara maliyyə xərclərinin azaldılması, vaxt və sənəd itkisinin qarşısının alınması daxildir. SİMA-nın istənilən sistemə inteqrasiya oluna bilməsi, həmçinin avtomatlaşdırılma istifadəçilərə sürətli və istənilən sayda imzalama imkanı qazan-

**Azərbaycan İnternet Forumun prezidenti, Multimedia Mərkəzinin direktoru Osman Gündüz "Şərq"ə açıqlamasında SİMA - yeni nəsil rəqəmsal imzanın tətbiqinin innovasiyalara çıxış imkanlarını genişləndirəcəyini bildirdi:**

- Mən də SİMA-nı aktivləşdirdim. Hələlik həm İOS, həm də Android üçün SİMA-nın beta versiyası aktivdir. Qeydiyyatda biometrik məlumatlar və video eyniləşdirmədən istifadə olunur. Şəxsiyyət vəsiqəsi skan olunur. Eyniləşdirmə mobil cihazın veb-kamerası vasitəsilə üztanıma əsasında canlı şəkildə həyata keçirilir. Bəzi xırda çatışmazlıqlar olsa da prosesi keçmək asandır. Çətinliklərin aradan qaldırılması üçün də təkliflərimizi təqdim etmişik. Düşünürəm ki, heç bir mobil nömrəyə - SİM karta bağlı olmayan, ödənişə, hər hansı kağız sertifikat və ya müqaviləyə, harasa getməyə ehtiyac olmadan əldə edilən SİMA imzası rəqəmsallaşmanı xeyli sürətləndirmək baxımından çox əhəmiyyətlidir. Cəmi bir dəfə qeydiyyatdan keçməklə vətəndaş böyük rəqəmsal imkanlar əldə edə biləcək.

Əgər qısa zamanda SİMA vətəndaşda, dövlət sektorunda və biznes qurumda olsa rəqəmsal transformasiyada böyük uğurlar əldə etmək mümkün olacaq. Hələlik bu imzaya inteqrasiya olunan xidmətlər demək olar ki, yoxdur. Ümid edirəm, RİNN VXSİ Dövlət Agentliyi və EHİM ilə birgə tez bir zamanda mövcud xidmətlərin, xüsusilə də dövlət xidmətlərinin SİMA-ya inteqrasiyası üçün ciddi işlərə başlayacaqlar. SİMA-nın tətbiqi mövcud sektorda rəqabəti də xeyli gücləndirəcək.

**Məlahət Rzayeva**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**



# Xocalı, Xocavənddə də kütləvi məzarlıqlar ortaya çıxacaq

## Elman Məmmədov: "Erməni vəhşiliyinin ifşası üçün əlimizdə kifayət qədər dəlil-sübut var"

**Fevral ayının 4-də Azərbaycan və Ermənistan rəhbərliyi arasında keçirilmiş görüşdə UNESCO-nun hər iki ölkəyə ayrı-ayrı missiyalarının göndərilməsinə dair razılıq əldə olunub. İrəvan hökumətinin başçısı Birinci Qarabağ müharibəsində itkin düşmüş 4000-ə yaxın azərbaycanlının taleyi, kütləvi məzarlıqlarla bağlı rəsmi Bakını məlumatlandıracağına söz verib.**

Lakin Ermənistan Xarici İşlər Nazirliyi UNESCO missiyalarının Azərbaycana və Ermənistana səfərləri ilə bağlı əldə olunmuş razılığı təkzib edib. İrəvan növbəti dəfə üzərinə götürdüyü öhdəliklərindən yayınmaq yolunu tutub. Rəsmi Bakı bu missiyanın həyata keçirilməsi üçün 20 ildən artıq bir müddət ərzində israrlı şəkildə quruma çağırışlar edib. Bununla bağlı çoxsaylı məktublar ünvanlayıb. Təəssüflər olsun ki, belə bir missiya həyata keçirilməyib və bunun yeganə səbəbkarı Ermənistan olub. UNESCO təşkilat olaraq, özü də bu faktı 2005-ci il tarixli hesabatında qeyd edib. Qurum Azərbaycan torpaqlarının Ermənistanın işğalı altında olduğunu vurğulayaraq, səfərin məhz Ermənistan tərəfindən qarşısının alındığını etiraf edib. Təşkilatın Ermənistan missiyasına gəldikdə isə, Azərbaycan tərəfi dəfələrlə Ermənistanda Azərbaycan xalqına məxsus mədəni irsin dağıdılması faktlarını beynəlxalq ictimaiyyətin diqqətinə çatdırıb. QHT-lər bu yaxınlarda həmin dağıntılara dair ətraflı məlumatı UNESCO-ya təqdim edib. Dağıntılara dair məlumatlarda fotoşəkillər və digər sübutlar öz əksini tapıb.

**Millət vəkili Elman Məmmədov "Şərq"ə deyib ki, Ermənistan tərəfi azərbaycanlılara qarşı həyata keçirdiyi soyqırımları, qətliamları inkar etməsi, gizlətməsi qeyri-mümkündür. Deputatın sözlərinə görə, işğaldan azad etdiyimiz bölgələrdə kütləvi məzarlıqların yeri aşkar edilib:** "Erməni vəhşiliyinin ifşası üçün əlimizdə kifayət qədər dəlil-sübut var. Gələcəkdə Xocalı, Xocavəndi də işğaldan azad etdikdə çox güman həmin ərazilərdə də kütləvi məzarlıqlar üzə çıxacaq. Ermənistan 30 il ərzində bir çox öhdəlik götürsə də, heç birinə əməl etməyib. Beynəlxalq təşkilatlar isə İrəvana qarşı hansısa addım atmayıblar, İrəvana təzyiq göstərməyiblər, nəyəsə məcbur buraxmayıblar. Soruşmayıblar ki, "ay Ermənistan rəhbərliyi, niyə öhdəliyinizi icra etmirsiniz?!". Kütləvi məzarlıqlardan əvvəl Ermənistan minalanmış ərazilərin xəritələrini verməyə razılaşmışdı. Uzun prosesdən, müəyyən təzyiqlərdən sonra əldə etdiyimiz xəritələrin sadəcə 25 faizi doğru çıxdı, 75 faizi yalan oldu. Bunu dünyaya açıq şəkildə bəyan etdik. Ancaq yenə də beynəlxalq aləmdən yalançı Ermənistana təpkinin şahidi olmadıq. Fevralın 4-dən sonra Azərbaycan tərəfi humanistlik göstərərək cinayət törətmiş 8 erməni hərbçisini qaytardı. Fransa Prezidenti E.Makron başda olmaqla, ABŞ və Qərb institutlarının nümayəndələri bizi alqışlamağa başladı. Onların boğazdan yuxarı tərifi bizə lazım deyil, humanist addımlar rəsmi Bakının davamlı siyasətidir. Kişilik, mərdlik, insanpərvərlik göstərərək bu addımları atırıq. Verdiyimiz sözün yiyəsi olduğumuzu təsdiqləyirik. Bunun müqabilində Ermənistan tamam fərqli addım atdı. Niyə bizi alqışa tutanlar sözündən dönən Ermənistanı qınamadı? Bu da ədalətsiz yanaşmadır. Yeganə yolumuz odur ki, daim hərbi güc faktorunu öndə saxlayaq. Qılıncımız Ermənistanın başının üzərində olmalıdır. Sərhəd, Zəngəzur dəhlizi və başqa bütün məsələlərdə erməniləri hərbi güclə yola gətirməliyik. Ermənistan danışıq, müzakirə dilindən anlamır. Ermənilər heç vaxt səmimi olmayıblar".

*"Niyə bizi alqışa tutanlar sözündən dönən Ermənistanı qınamadı?"*

**İsmayıl Qocayev**

# "Mənə söz vermişdi ki, gələcək"

## Şəhidin həyat yoldaşı: "O, sözünə sadiq insan idi, ona görə ölümünə inanmırdım"



**44 günlük Vətən müharibəsinin şəhidlərindən biri də Zahir Zakir oğlu Mehdiyevdir. Zahir 1984-cü il aprelin 27-də Kürdəmir rayonunun Qarabucaq qəsəbəsində doğulub. 1990-2001-ci illərdə Kürdəmir rayon Qarabucaq kənd tam orta məktəbində təhsil alıb. Zahir Mehdiyev 2002-2004-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət qulluqçusu olub. Goranboy rayonunun Goran qəsəbəsində yerləşən "N" saylı hərbi hissədə xidmət edib. 2010-cu ildən eyni hərbi birləşmədə "gizir" rütbəsində xidmət göstərib. Qazax rayonunda yerləşən "N" saylı hərbi hissədə xidmətini davam etdirib. 2016-cı ilin aprelin 2-dən 5-nə qədər davam edən Aprel döyülərində vuruşaraq fərqlənib.**

Az?rbaycan Ordusunun giziri olan Zahir Mehdiyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Fizuli və Xocavənd istiqamitində gedən döyüşlərdə savaşıb. Zahir Mehdiyev noyabrın 3-də Xocavənd döyüşləri zamanı şəhidlik zirvəsinə yüksəlib. Dekabrın 4-də Kürdəmir Şəhidlər Xiyabanında dəfn olunub.

Z.Mehdiyevin ailəsi ilə kiçik söhbət apardıq. Anası Sürəyya xanım, kiçik bacısı Çinarə, həyat yoldaşı Süranə xanım şəhidimiz haqqında danışıblar:

**Anası Mehdiyeva Sürəyya:**

"Zahir ilk övladım, ilk sevincim idi. Uşaqlıqda Zahir bir az dəcəl olub. Müəllimləri hər valideyn iclasında deyirdilər ki, yaxşı uşaqdı, ancaq bir yerdə dayanmır.

Orta məktəbi bitirəndən sonra hərbi xidmətə getdi. Hər ay onu görməyə gedirdik. Pul vermək istəyirdik, götürmürdü. Əksinə, azacıq əsgər məvacibindən mənə pul verirdi. Zahir hərbi xidmətini tərifnamə ilə başa vurdu. Komandirindən, əsgər yoldaşlarından onun haqqında ancaq yaxşı sözlər eşidirdik. Ana-oğul bir birbirimizə çox bağlı idik. Nə sözü olsa, mənə deyərdi. Əsgərlikdən qayıdandan sonra evin bütün qayğılarını öz üzərinə götürdü. Atası rəhmətə gedəndə Zahirin 25 yaşı vardı. Zahir gənc yaşında ailənin bütün yükünü çiynində daşıdı. Arxam, dayağım oldu.

Nə qazansaydı, evə verərdi. Uşaqlıqdan hərbə meyli vardı. Ona görə də gizirlik kursunda oxudu. Onun əmrini Qazax rayonunun Kəngərli kəndinə verdilər. Zahir Aprel döyüşlərində iştirak etmişdi, medal, tərifnamə ilə təltif olunmuşdu. 2016-cı ilin sonunda müqaviləsi bitəndən sonra hərbi xidmətdən təxris olundu. 3 il Bakıda tikintidə işlədi. Yenidən hərbi işə qayıtmaq istəyirdi, qayıtdı da. Gizirlik kursunda oxudu, imtahanlardan keçdi, 2020-ci ilin iyulundan əmrini gözləyirdi. Sentyabrın 29-da Bakıda öz işində idi. Zəng vurub dedi ki, əmrim gəlib. Sentyabrın 30-da evə gəldi. İki gecəlik qonağımız oldu. Ailəsini mənə əmanət edib Ağcabədiyə yollandı. Hər gün Zahirlə danışırdıq. Noyabrın 2-dək əlaqə saxlayırdıq. Sonra Zahirdən zəng gəlmədi. Həmin vaxtlar iki dəfə yuxuma girdi. Birinci dəfə gördüm ki, Zahir gəlib evin küncündə dayanıb, çağırıram cavab vermir, yanıma gəlmir. Ona yaxınlaşıram, yox olur. Bir dəfə də gördüm ki, həyətə gəlib, ancaq evə girmir. Başında yarası var, ağlayır...Yuxular məni şübhəyə salsa da, Zahirin ölə biləcəyini ağlıma gətirmirdim. Bayraqlı tabutda, böyük izdihamla evimə gələnə qədər onun ölümünü qəbul edə bilmirdim".

Bu sözlərdən sonra ana kövrəldi, qəhər boğdu və susdu.

**Şəhidin bacısı Çinarə xanım qardaşını belə xatırlayır:**

"Zahir məndən 2 yaş böyük idi, arxam-dayağım idi. Heyif ki, onu tez itirdik. Mənim onunla o qədər xatirələrim var ki, istər uşaqlıq dövrü, istərsə də yeniyetməlik dövrü... Qardaşımla bir yerdə oynayırdıq. Atam rəhmətə gedəndən o mənə həm də ata oldu. Həmişə çalışırdı ki, yaxşı qardaş olsun, hamıya örnək olsun. Mən onunla fəxr edirdim. Qürur duyurdum ki, mənim belə qardaşım var. Onunla bağlı arzularım yarımçıq qaldı. Qardaşım şəhid olana qədər şəhid sözünün nə məna daşıdığını tam dərk edə bilmirdim. Qardaşımla öyrəndim şəhidliyin ən ali məqam olduğunu. 36 il ömür sürdü. Qısa, ancaq mənalı ömür. Ölümü də şərəfli oldu".

Çinarə xanım danışdıqca gözləri dolur, boşalırdı.

Düzdü, Zahir çox qısa yaşadı. Amma qəhrəmanlığı sayəsində qəlblərdə əbədiyyən yaşayacaq.

**Həyat yoldaşı Süranə xanım Zahirlə birgə yarımçıq qalan arzularından danışır:**

- Zahirlə tanışlığımız təsadüfi olmuşdu. Dayısıgil bizə qonaq gəlmişdi. Tez-tez bizə, Ucarın Şilyan kəndinə gəlib gedirdilər. Bir gün bizə gələndə Zahiri də özləri ilə gətirmişdilər. Bir-iki gün sonra eşitdim ki, o məni bəyənib. Nə gizlədim, mən də onu bəyənmişdim.

2012-ci ilin oktyabrında evləndik. Bəzi çətinlikləri nəzərə almasaq, biz Zahirlə çox xoşbəxt idik. O məni anlayan, arzu-istəklərimi nəzərə alan, diqqətli, qayğıkeş həyat yoldaşı idi. Çalışırdı ki, maddi sıxıntımız olmasın. İmkanı çatan qədər evin, uşaqların, mənim ehtiyaclarımızı təmin edirdi. Yeganə çətinliyimiz onun həmişə bizdən uzaqda olması idi. Usaqlar atalarına həsrət qalırdılar. Hər gün telefonla danışırdıq. Zahirin ayda bir dəfə evə gəlmək imkanı olurdu.



*"Çoxlu arzularımız vardı. Evimizi təmir etdirmək, uşaqlara dərs otağı düzəltdirmək istəyirdik. Qismət olmadı"*

Mən istəyirdim ki, uşaqlar hər gün oyananda atalarını başlarının üstündə, süfrəyə oturanda, süfrənin başında görsünlər. Məktəbə ataları aparsın.

2016-cı ilin dekabrında müqaviləsi bitəndən sonra yalvardım ki, daha müqavilə bağlamasın. Daha ayrılıq istəmirdim. Bir müddət evimizdə oldu.

Özünə iş axtarırdı. Ancaq iş tapa bilmirdi. İşləmək üçün Bakıya getdi. 10 gündə bir dəfə evə gəlirdi. Yenidən hərbi işə qayıtmaq istəyirdi. Deyirdi ki, hərbiyə öyrəşmişəm.

Çoxlu arzularımız vardı. Bu il evimizi təmir etdirmək, uşaqlara dərs otağı düzəltdirmək istəyirdik. Qismət olmadı. Aysun 2-ci sinifə, Samir hazırlığa gedirdi. Samirə kiçik toy eləmək istəyirdik. Zahirin son gedişi gözümün qabağından getmir. Küçəmizin tini ilə gedəndə dönüb baxdı və getdi. Mənə söz vermişdi ki, gələcək. O, sözünə sadiq insan idi. Ona görə də ölümünə inanmırdım. Ümid edirdim ki, gələcək. Onu axtaranda Allaha yalvarırdım ki, sağ-salamat tapılsın. Nəşini mənə göstərmədilər. Ona görə də hələ də onun ölümünə inana bilmirəm. Tez-tez yuxumda görürəm ki, evimizə gəlir, mənə deyir ki, mən ölməmişəm, sonra bir az həyətdə gəzir, sonra da yox olur. 8 il birgə ailə həyatımız oldu. Zahir evdə çox olmasa da ondan hələ acı söz eşitməmişdim. Mən də son mənzilə yola salanda onun əziyyətini çəkmək istədim. Cənazəsinin altına girdim, çiynimdəki yük ağır deyildi. Ürəyimdəki yük ağır idi. Tənhalıq yükü belimi bükdü.

*Şəhidmizin həyat yoldaşının sözlərindən çox təsirlənmişdim. Süranə xanımın dediyi kimi, mən də Zahir və Zahir kimi şəhid olanların ölümünə inanmıram. Onlar daim yaşayırlar, sadəcə görünmürlər. Bizim üstümüzə yalnız bir vəzifə düşür. Unutmamaq. Gələcək nəsillərə ötürmək, onlara belə qəhrəmanları tanıtmaq borcumuzdur. Allah bütün şəhidlərimizə rəhmət eləsin!*

**Nigar İmanova**

# "İsmayıllı" şoru, "İvanovka" süd məhsulları adı altında alıcıları aldadırlar



## Eyyub Hüseynov: "Beynəlxalq təşkilata Azərbaycanı tənqid edən hesabatlar təqdim edəcəm"

**Sosial şəbəkələrdə "İsmayıllı" şoru adlı məhsulun fotosu paylaşılıb. Fotodan göründüyü kimi, məhsulun son istehlak tarixi 30 fevral 2022-ci il göstərilir.**

Fevral ayının hər 4 ildən bir 28-29 gündən ibarət olduğu hər kəsə məlumdur. Köhnə malların, ərzaq məhsullarının üzərində tarixləri yeniləmək, təzə məhsul kimi təqdim etmək insanlar arasında narazılıq yaradır.

**Azad İstehlakçılar Birliyinin (AİB) sədri Eyyub Hüseynov bu məsələyə münasibət bildirib. E.Hüseynov diqqətə çatdırıb ki, bu xırda məsələdir:**

"Hər il istifadə müddətində 30 fevral yazılması barədə Azad İstehlakçılar Birliyinə şikayətlər daxil olur. Əsas problemlərdən biri "İsmayıllı" şoru, pendiri, qaymağı "İvanovka" süd məhsulları adı altında istehlakçıların aldadılmasıdır. Qüsurlar barəsində Qida Təhlükəsizliyi Agentliyinə, İqtisadiyyat Nazirliyinə məlumat vermişəm. Saxta malların satılma yerlərini söyləmişəm. Lakin heç bir dövlət orqanı əhəmiyyət verməyib.

Ölkədə istehlakçı hüquqlarının qorunması bərbad vəziyyətdədir. Beynəlxalq İstehlakçı Təşkilatının Azərbaycanda nümayəndəsiyəm. 24 il ərzində ölkəmizdə istehlakçı hüquqlarının pozulması haqqında beynəlxalq təşkilata normal hesabat verməmişəm. Azərbaycanı digər ölkələr arasında pisləmək niyyətim yoxdur. Beynəlxalq təşkilatlar Azərbaycanı yaxşı bir mal istehsal edən ölkə kimi tanıyırlar. Keyfiyyət məsələsi isə sual altındadır".

**E.Hüseynovun fikrincə, illər keçdikcə qanunlarda aparılan dəyişikliklər ancaq istehlakçıya zərər vurur:**

"Mayın 18-i 2021-ci ildə" məcburi sertifikatlaşdırılan mallar haqqında Nazirlər Kabinetinin 343 saylı qərarı ləğv olunub. Həmin qərarda təhlükəsizliyi təmin olunan malların böyük siyahısı var idi. Elektrik malları, armaturlar, betonlar, qida məhsulları, uşaq oyuncaqları bu siyahıya daxil idi. Sahibkara deyiblər ki, kim kimi aldatmaq istəyir, aldatsın, əcəb edir. Ona görə klinikalar xəstələrlə dolur. Çox uzun zəncirdir. Etiketləmə ilə heç kim məşğul deyil. Nə Qida Təhlükəsizliyi Agentliyi, nə Antiinhisar və İstehlak Bazarına Nəzarət xidməti, nə də Standartlaşdırma İnstitutu. Çox təəssüf ki, məsələlər ortada qalıb. Qida sənayesində istehlakçıların həyatı təhlükədədir. Görünür, beynəlxalq təşkilata Azərbaycanı tənqid edən hesabatlar təqdim edəcəm. Qoy, Azərbaycan dünya ölkələri arasında harda olduğunu hiss etsin".

**Aygün Tahir**

# "Təşəkkür"

## Brilliant Dadaşova Murad Ariflə klip çəkdirib



**Xalq artisti Brilliant Dadaşova müğənni-bəstəkar Murad Ariflə "Təşəkkür" adlı duetlərinin klipini təqdim ediblər.**

"Şərq"in məlumatına görə, sənətçilər bu barədə sosial mediada məlumat veriblər.

"Muradik, gözəl qəlbindən gələn duyğulu musiqi üçün sənə özəl "təşəkkürlər". Duetimizi Muğam mərkəzinin səhnəsində çəkdik. Zəhməti olan hər kəsə təşəkkürlər!"- B.Dadaşova öz sosial media hesabında bildirib.

**Birlikdə fotolarını paylaşan M.Arif isə açıqlama qismində bu sözləri vurğulayıb: "Mən sənə ulduzları göydən dərib gəldim..."**

Sənət-qadın, musiqi-qadın Brilyantdır o... Nə zamansa bir duet olacağını bilirdim. Amma, o əsər yazılmırdı... Nəhayət, Samir Şirinova zəng edib dedim ki, "klassik ovqatda, simli alətlərin bol olduğu bir vals yazmışam". Tərəddüdsüz təklif etdim və oxuduq. Bu nəğmənin hələ çox yaşayacağına əminəm. Zamanla çox seviləcək... İşimizi dəyərləndirin. Çünki "təşəkkür" sevgiylə hazırlanıb".

**Aygün Tahir**

**Elan**

Quba Nəqliyyat ATSC-nin ümumi yığıncağı 2022-ci ilin mart ayının 12-də Quba şəhərində keçiriləcəkdir. Səhmdarların iştirak etməsi xahiş olunur.

Nəriman Nərimanov rayonu, Faiq Yusifov 2 A küç., mən. 123-də yaşayan Regina Rzaeva İlqarovnaya Şəlalə MTK-dan verilmiş müqavilə itdiyi üçün etibarsız sayılır.

# "İşçiyə məzuniyyətin verilməməsi qadağandır"



## Sahib Məmmədov: "İldə 4-5 dəfə köhnə məcəlləyə əlavələrin edilməsi məqsədəuyğun deyil"

**Məcburi məzuniyyətlə bağlı Əmək Məcəlləsinə dəyişiklik layihəsi təklif edilib. "Report" xəbər verir ki, bunu Dövlət Əmək Müfəttişliyi Xidmətinin rəisi Fuad Heydərov "Sosial saat"da deyib.**

Onun sözlərinə görə, hazırda məzuniyyətlə bağlı məcburilik yoxdur: "Lakin bəzən bu haldan sui-istifadə halları olur. Məzuniyyətdən istifadə olunmalıdır ki, işin keyfiyyətinə mənfi təsir etmə halları olmasın. Məzuniyyət də tərəflərin qarşılıqlı razılığı əsasında ya həmin il, ya da növbəti təqvim ilinə keçirilməsi kimi həll oluna bilər".

Qanun hər bir işçinin məzuniyyət haqqı olduğunu bildirir. Bəzi müəssisələr işçinin bu haqqını görməzdən gəlir. Bəzən də onları məzuniyyətə göndərirlər. Lakin işçi məzuniyyətini tamamlamamış işə gəlir. Bununla bağlı tədbirlərə ciddi yanaşılması problemi ortadan qaldıra bilər.

**Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqasının sədri, hüquq müdafiəçisi Sahib Məmmədov deyib ki, konstitusiyaya görə, hər kəsin ən azı 21 gün olmaqla, əmək məzuniyyətindən istifadə etmək hüququ var:** "Bu da, Əmək Məcəlləsinin 135-ci maddəsində əks olunub. 1999-cu ildə qəbul edilmiş redaksiyada göstərilirdi ki, bu məcəllə ilə müəyyən edilmiş əsas məzuniyyətə 21 və ya 30 təqvim günü 1 iş ilindən digər iş ilinə keçirilməsi, habelə əmək məzuniyyətinin dalbadal 2 il ərzində verilməməsi qadağandır. Yəni bu, məcəllənin ilk redaksiyasında qadağa olub. Bunu pul verməklə əvəzləmək olmur. O qədər məzuniyyəti birdən-birə vermək də mümkün deyil. Ona görə də 2006-cı ildə Əmək Məcəlləsinə dəyişiklik etdilər. Qeyd olundu ki, bu məcəlləyə uyğun olaraq işəgötürən tərəfindən işçiyə əmək məzuniyyətinin verilməməsi qadağandır. Amma 2-ci bəndə yazdılar ki, işçi müvafiq iş ili ərzində əmək məzuniyyətindən istənilən səbəbdən istifadə etmədikdə ona həmin iş ili və yaxud iş illəri üçün istifadə edilməmiş əmək məzuniyyətindən müəyyən olunmuş qaydada və məbləğdə kompensasiya ödənilir".

Mütəxəssis təklifi izah edib: "İndi təklif verirlər ki, ikinci hissə çıxardılsın və yenə də hər il məzuniyyətin verilməsi məcburi olsun. Bu halda kompensasiya vermək mümkün olmayacaq. Hesab edirəm ki, bu, öyrənilmədən belə bir addımın atılması tamamilə düzgün deyil. İnsanlar var, 10 ildir, məzuniyyəti yığılıb. Bəlkə də, bu təklif əvvəlki illərə şamil olunmayacaq. Bundan sonra işçiyə məzuniyyət verilməyəndə onu pulla əvəzləmək mümkün olmayacaq və batıb gedəcək. Bu, düzgün deyil. Təklifi verənlər hüquqi baxımdan haqlıdırlar. Konstitusiyaya əsaslanır. Bu, əməyin mühafizəsiylə bağlı məsələdir. İşçilər istirahət etməyəndə sağlamlıqlarına ziyan dəyə bilər. Bu cəhətdən haqlıdırlar".

**S.Məmmədov qeyd edib ki, reallığı nəzərə alsaq, təklifin həyata keçirilməsi qeyri-mümkündür:**

"Ümumiyyətlə, ildə 4-5 dəfə köhnə məcəlləyə əlavələrin edilməsi məqsədəuyğun deyil. Onsuz da bu məcəlləyə az-çox ancaq dövlət sektorunda əməl olunur. Özəl sektor bu məcəlləni çoxdan unudub. Çünki o qədər dəyişiklik və əlavələr edilib ki, artıq tətbiq etmək mümkün deyil. Dövlət sektorunda da kim necə anlayır, o cür də tətbiq edir".

**Cəmilə ƏZİM**

Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu
KURSLAR
-MÜHASİBAT (2 AY)
-Mobil telefonların təmiri (3 ay)
-KOMPYUTER (1-3 AY)
-KOSMETOLOGİYA və VİZAj (3 AY)
-KİŞİ və QADIN BƏRBƏRİ (1-3 ay)
-Dizayn (3-6ay)
-Masaj (3 ay)
-Biçmə - Tikiş (3 ay)
-Məktəb Psixologiyası (12 ay)
Tel: (012) 489-08-84
Mob: (070) 241-28-67
www.az-baku.com



# Heç vaxt, heç nə gec deyil

## Polis məktəblərdə narkomaniya ilə bağlı söhbətlər aparır

**Sosial şəbəkələrdə Bakı şəhəri, Binə qəsəbəsi 218 nömrəli məktəbdə polis əməkdaşlarının direktor və ya dərs hissə müdiri ilə siniflərə baxış keçirərək uşaqların telefonlarını topladılarına dair məlumat yayılıb.**

Məsələ ilə bağlı məktəbdən APA-nın sorğusuna cavab olaraq bildirilib ki, fevralın 10-da rayon polis idarəsinin əməkdaşları tərəfindən məktəb rəhbərliyi ilə birgə bir neçə sinifdə nizam-intizam qaydaları ilə bağlı profilaktik söhbət aparılıb.

"Təhsil müəssisəsində polis əməkdaşlarının uşaqlardan telefon toplaması halı baş verməyib", - açıqlamada qeyd olunub.

**"Sağlam Cəmiyyət Hərəkatı"nın rəhbəri, sosioloq Lalə Mehralı mövzu ilə bağlı "Şərq"ə açıqlamasında bildirib ki, profilaktik söhbətlərin aparılmasına çoxdan ehtiyac yaranıb:** "Hər birimiz uşaqları gözləyən təhlükədən xəbərdarıq. Xüsusilə də narkomaniya ilə bağlı yeniyetmələrin müdafiəsiz olmasından narahatlıqlar var. idi. Uşaqların maarifləndirilməsi, ətrafdan gələ biləcək təhlükələrdən məlumatlanmaq, narkotik alverçilərinin toruna düşməmək üçün məsləhətlər vacib idi. Çox müsbət qiymətləndirirəm. Bəzən hansısa narkomandan müsahibə alındığını görürük. Peşmanlıqlarını dilə gətirirlər. Onlar da bir vaxtlar, məktəb dövründə kimlərinsə qurbanına çevriliblər. Əvvəldən belə tədbirlər görülsə idi, daha bəyənilən olardı. Amma heç vaxt, heç nə üçün gec deyil. Heç olmamaqdansa, gec olmağı yaxşıdır".

**Sücayət Mehti**

# Tez-tez uşaq əməyinin istismarının şahid oluruq

## O uşaqları küçələrdən yığıb, onların ailələrinin vəziyyətini qiymətləndirmək lazımdır



**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (ƏƏSMN) Əmək siyasəti şöbəsinin müdiri Əbülfət Məhərrəmov AzTV-nin efirində uşaq əməyinin istismarı barədə danışıb. O bildirib ki, ötən il bu məsələ ilə bağlı İnzibati Xətalar Məcəlləsinin müvafiq maddələrinə dəyişikliklər əlavə edilib:**

"İnzibati Xətalar Məcəlləsinin 192.8-ci maddəsi əsasən, yaşı 15-dən az olan uşaqların işə cəlb edilməsi ilə bağlıdır. Ötən il dörd belə hal aşkar olunub və bu xətaya yol verən vəzifəli və hüquqi şəxslərə qarşı cərimə tətbiq edilib".

Mövzunu dəyərləndirən Azərbaycan Uşaqlar Birliyinin sədri Kəmalə Ağazadə "Şərq"ə söyləyib ki, hazırda küçələrdə yetərincə uşaq əməyindən istifadə hallarının şahidi oluruq: "Bunun qarşısını almaq üçün ilk növbədə aiddiyyəti dövlət qurumları həmin uşaqları küçələrdən yığıb, onların ailələrinin vəziyyətini qiymətləndirməlidir. Səbəbləri araşdırmaq mütləq lazımdır".

**K.Ağazadə uşaq əməyinin istismarına qarşı mübarizə aparan qurumlara diqqət çəkib:** "Təkcə Sosial Xidmətlər Agentliyi deyil, eyni zamanda, Daxili İşlər Nazirliyi də bu istiqamətdə işlər görür. Qurum reydlər zamanı faktları aşkarlayır. Amma tədbirlər planının həyata keçirilməsi, bu uşaqlarla işin aparılması Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Təhsil Nazirliyi, Səhiyyə Nazirliyi, ƏƏSMN və Vətəndaş Cəmiyyəti tərəfindən birgə həyata keçirilir".

*Xatırladaq ki, "Save the Children" təşkilatının 2018-ci il reytinqində 175 ölkə arasında 841 xalla 89-cu yeri tutan Azərbaycanda 2012-2017 illərdə uşaq əməyi göstəricisi 6,5 faiz olub.*

**Günəş Mərd**

# Müğənnilər televiziyalardan qonorar istəyir

## Natəvan Həbibi: "Bu, bir şərtdir, formatdır, sistemdir"



**Bir neçə gündür müğənnilər Xatirə İslam, Natəvan Həbibi, reper Elşad Xose kimi ifaçıların efirlərə çıxma qarşılığında qonorar istəməsi müzakirə edilir.**

"Şərq" xəbər verir ki, N.Həbibi "İnstagram" səhifəsində məsələyə münasibət bildirib.

"2022-ci ildir. Digər ölkələrin yanında belə mövzuların olması ayıbdır, utancdır. Hətta bizim sənətçilər ən yaxınımız Türkiyə televiziyalarına dəvət alır, qonorar müqabilində qonaq kimi iştirak edir. Çünki bu, bir şərtdir, formatdır, sistemdir. "Bizdə yoxdur, ola bilməz" kimi kəlmələr belə ayıbdır. Necə yəni? Qanun hamı üçün qanundur. Dövlətimiz hər zaman incəsənətə o dəyəri, diqqəti ayırıb. Sadəcə aşağı instansiyalar, TV rəhbərliyi, media qurumları da öz işini yerinə yetirməlidir"-, deyə o qeyd edib.

**Aygün Tahir**

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, Nailə Cabarova, İlahə İbrahimova, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 418




## “Əziz dostlar, sifariş etməyin!"

İlhamə “Bolt food”u fırıldaqçılıqda ittiham etdi

**Müğənni İlhamə Qasımova Azərbaycanda fəaliyyət göstərən ”Bolt Food” yemək çatdırılma xidmətini fırıldaqçılıqda ittiham edib.**

Sənətçi bu haqda instaqram hesabında yazıb. İlhamə yemək sifariş edərkən başına gələn hadisəni bölüşüb:

”Bolt food” təzə fırıldaq edir. Guya nağd satışda kuryer şirkətə pulu vermir, bunlar da müştəri üçün borc yazır. Yaxşı, bəs kuryerdən soruşan yoxdur ki, sən pulu almadınsa, yeməyi niyə verdin, atanın şirkətidir? Sonra müştəriyə də yazırlar ki, kuryer pul ödəməyib, ona görə borcunu ikinci dəfə ödə. Gözlə Yaxşı ki, kart hesabı yazılmayıb, yoxsa ona da çarə edərdilər. Əziz dostlar, xəbəriniz olsun, ”Bolt food”dan sifariş etməyin”.

## Messinin şirkətində kütləvi ixtisar olub



**PSJ-nin hücumçusu Lionel Messiyə məxsus ”MIM Hotels” otellər şəbəkəsi İspaniyanın Kadis şəhərində otel alıb.**

Apasport.az saytının məlumatına görə, şirkət dərhal otelin heyətini tamamilə yeniləməyə qərar verib.

Nəticədə orada çalışan 40-a yaxın əməkdaş işsiz qalıb. Onlar arasında 20 ildən çoxdur oteldə fəaliyyət göstərənlər də var. Ancaq bu kütləvi ixtisar Kadis əyalətinin meri Xuan Karlos Ruis Boysun narazılığına səbəb olub. O, açıqlamasında peşəkarların işinə dönməsinə çalışacaqlarını söyləyib.

*Qeyd edək ki, Lionel Messi ötən yay ”Barselona”dan ayrılaraq, azad agent kimi PSJ-yə keçib.*



# İtlər 7 yaşlı uşağa hücum çəkdi

## Əhməd hələ də sayıqlayır





**Pitbulların hücumuna məruz qalan 4 yaşlı Asiyənin yaraları sağalmamış bu dəfə də 7 yaşlı Əhməd faciə yaşayıb. Türkiyənin Mardin bölgəsinə aid Nusaybin şəhərində evlərinin yaxınlığında oynayan 7 yaşlı Əhmədə itlər hücum edib.**

”Şərq” ”Milliyet.com”a istinadən xəbər verir ki, hadisə Nusaybinin Girməli məhəlləsində yaşanıb. Uşağa itlərin hücum etdiyini görən məhəllə sakinləri cəld köməyə gəliblər və itləri ərazidən uzaqlaşdırıblar. Əhməd təcili yardım maşınıyla Nusaybin Dövlət Xəstəxanasına aparılıb. Xəstəxanada uşağa ilkin yardım göstərilib, lakin vəziyyəti ağır olduğundan Mardin Dövlət Xəstəxanasına köçürülüb. Əhmədin anası Nurşin Dal uşağın sayıqladığını, itlərin hücumunu unuda bilmədiyini deyib. N.Dal - mənə, ”ana, məni evimizə apar”, deyə yalvarır. Oğlumun bu halı məni çox üzür. Qaziantəpədəki dəhşətli hadisəni (4 yaşlı Asiyənin itlərin hücumuna məruz qalması olayı) izləyəndə, özümə ”inşallah, övladımın başına gəlməz”, deyə dua edirdim və çox qorxurdum. Amma başımıza gəldi. İnşallah, bundan sonra başqa körpələrin başına gəlməsin”, söyləyib. Hazırda xəstəxanada Əhmədin müalicəsi davam edir. Uşağın üzündə, qollarında ciddi yaralar var. Mardin bölgəsi sağlıq müdiri Saffət Yavuz Əhmədin vəziyyətinin yaxşılaşdığını deyib, əlavə edib ki, yaralar sağalsa da, bir dizi əməliyyat olunmalıdır. Əhməd daim həkim nəzarəti altındadır, lazımi tibbi müdaxilələr icra edilir. Əhmədə hücum edən itin sahibi olduğu da müəyyənləşib. Bu istiqamətdə də tədbir görülür. Polis tərəfindən aparılan tədqiqat zamanı məlum olub ki, Əhmədə hücum etmiş it məhəllə sakinlərindən birinin çoban itidir. İtin niyə nəzarətsiz halda küçəyə buraxıldığı da müəyyənləşəcək. Mardin Böyükşəhər Bələdiyyəsi Küçə Heyvanları Reabilitasiya Mərkəzinin əməkdaşları Girmeli məhəlləsinə gələrək küçə itlərinin toplanmasını icra ediblər. 9 it ərazidən toplanaraq sığınacağa aparılıb. Mərkəzin şöbə müdiri, baytar həkim Zeynəb Samançı məhəllədəki küçə itlərinin hamısını toplayacaqlarını deyib.

**Məlahət**

## Maskın ilk oğlu qollarında ölüb

“Uşağını itirməkdən daha pis bir şey yoxdur”



**Dünyanın ən varlı insanları siyahısında yer alan, ”Tesla” və ”SpaceX”in sahibi İlon Maskın şəxsi həyatı ilə bağlı bəzi məlumatlar ortaya çıxıb.**

**Axşam.az xarici mediaya istinadən xəbər verir ki, iş adamının elektron yazışmaları ifşa edilib. 2018-ci ildə Teslanın qəzaya düşməsi nəticəsində övladını (red. - 18 yaşlı sürücü Barrett Riley) itirən ailə ilə yazışan İlon ilk övladını - Castin Uilsondan olan Nevada Aleksandr Maskı 10 həftəlik olarkən itirdiyindən danışıb: ”Uşağını itirməkdən daha pis bir şey yoxdur. Birinci oğlum 10 həftəlik olarkən qollarımda öldü. Mən onun ürək döyüntülərini hiss etdim”.**

***Qeyd edək ki, 2018-ci ildə Barrett Florida ştatında saatda təxminən 116 mil sürətlə gedən ”Tesla Model S”də idarəetməni itirərək beton divara çırpılaraq həyatını itirib.***

## “Mançester Yunayted" onu da qazandı

Ronaldonun 11 yaşlı oğlu ilə müqavilə imzalanıb



**İngiltərənin ”Mançester Yunayted” klubu əsas komandanın hücumçusu Kriştiano Ronaldonun 11 yaşlı oğlu ilə müqavilə imzalayıb. Trend-in məlumatına görə, bu barədə ”Sportbible” öz ”Twitter” səhifəsində xəbər verib.**

***Xatırladaq ki, İngiltərə çempionatının 24-cü turunun matçında ”Mançester Yunayted” ”Bernli” ilə heç-heçə edib(1:1). K.Ronaldo matça ehtiyat oyunçular skamyasında başlayıb və 68-ci dəqiqədə meydana daxil olub. Bu görüşdə portuqaliyalı fərqlənə bilməyib.***

***K.Ronaldo ardıcıl 5 matçdır ki, qol vura bilmir. Son dəfə o 2010-cu ildə ”Real”da (Madrid) çıxış edən zaman 5 oyun qol vura bilməmişdi.***

## Miray Daner Seda Sayanın oğluna ərə gedir



**Türkiyəli aktrisa Miray Danerə sevgilisi Oğulcan Enginin evlilik təklifi etdiyi iddia edilib.**

**Axsam.az xəbər verir ki, cütlüyün tezliklə nikah masasına əyləşəcəyi deyilir.**

***Qeyd edək ki, O.Engin türkiyəli müğənni Seda Sayanın oğludur.***



# Xilas yolu

## Alimlər ağcaqanadların sirrini çözdü



**Ağcaqanadlar kimin həyatını zəhərə döndərmir ki! Yuxunun şirin vaxtı qulağımızın dibində eşidilən o dəhşətli vızıltıdan, ertəsi gün isə dərimizdə qançır əmələ gələnədək... Qaşınmadan xilas olmağın yolu tapılıb. Buna görə, əlbəttə, ABŞ alimlərinə böyük təşəkkür düşür.**

”Milliyet.com” yazır ki, ABŞ-ın Vaşinqton Universitetində aparılan tədqiqat sonucları ağcaqanadlarla mübarizədə qalib gəlməyin yollarını aşkara çıxarıb. Məlum olub ki, ağcaqanadlar insan dərisindən və insan nəfəsindən havaya buraxılan karbon-dioksidə doğru ”yürüyürlər”. Bu zalım həşərat karbon-dioksid qoxusunu sevir. Nə dərimizi dəyişə, nə nəfəs alıb-vermədən yaşaya bilərik. Bəs nə etməli? Alimlər ağcaqanadların iybilmə gücünü tədqiq edib. Bir neçə otağa müxtəlif qoxular yayaraq, həmçinin otaqlarda rəngli parçalar və insan əlinə oxşar əşya qoyaraq ağcaqanadların davranışını izləməyə başlayıblar. ”Çoxbilmiş” ağcaqanadlar heç bir qoxuya reaksiya verməyib, ”insan əlinə” də yaxın gəlməyib. Alimlər otaqlarda dəyişiklik edib. Otaqlara karbon-dioksid püskürdülüb, yalançı əl əvəzinə də təcrübədə iştirak edən bir nəfər əli aşkar göründüyü halda dayanıb. Bu zaman mənzərə köklü dəyişib. Ağcaqanadlar karbon-dioksid qoxusu alaraq rənglərə tərəf hərəkətə keçib. Müəyyən edilib ki, həşəratların gözləri insan dərisindən yayılan siqnalları görür və onlar bu siqnallar vasitəsilə insana tərəf uçur, dəriyə qonaraq qanı sormağa başlayırlar. Bir başqa mühüm tapıntı isə ağcaqanadların məhz qırmızı, narıncı və qara rənglərə tərəf uçmasıdır. Zatən insan dərisinin rəngi də qırmızıya çalır. Bununla da alimlər ağcaqanadların əsasən qırmızı, narıncı və qara rəngli geyimlərdə olan insanları hədəfə aldığını müəyyənləşdirib. Amma yaşıl, bənövşəyi, mavi və ağ rənglər ağcaqanadları cəlb etmir. Bunları nəzərə alaraq xüsusən yay aylarında geyimlərin rəngini düzgün seçmək məsləhətdir. Qırmızı, narıncı və qara rəngli libas geyindikdə isə ağcaqanadlara dəvət göndərmiş oluruq. İnsan nəfəsi, tər və dərinin temperaturu da ağcaqanadları cəlb edir. Ağcaqanadlardan qorunmaq üçün uzanarkən və ya yatarkən ağ rəngli mələfə və ya hər hansı örtü ilə örtünmək, yaşıl, bönövşəyi, mavi, sarı rənglərdən istifadə etmək lazımdır.

*”Qırmızı, narıncı və qara rəngli libas geyindikdə ağcaqanadlara dəvət göndərmiş oluruq”*

**Məlahət**

## Anadan dəhşətli addım

Bir qızını öldürdü, digərinə işgəncə verib pul yığdı



**Kolorado sakini Kelli Törner ianə toplamaq üçün qızı Oliviya Qantdan istifadə edib.**

O, xəstəlik tarixçəsi ilə bağlı həkimlərə yalan danışıb və həkimləri yeddi yaşlı qızının üzərində lazımsız əməliyyatlar aparmağa məcbur edib. O, həmçinin həkimləri qızına lazımsız dərmanlar yazmağa çağırıb və onun ”müalicəsi” üçün ianə toplayıb. Prokurorlar Törnerin 100 min dollardan 1 milyon dollara qədər xeyriyyə aldığını bildirirlər. Nəticədə polis olmaq arzusu ilə yaşayan qızcığaz Denver Hospisində vəfat edib. Daha sonra Kelli Törner ikinci qızını da sümük ağrıları ilə eyni xəstəxanaya gətirməsi həkimlərin şübhələrinə səbəb olub. (apa) Hazırda 13 yaşlı qız nənə və babasının himayəsindədir, səhhətindən şikayəti yoxdur. Törner törətdiyi cinayəti etiraf edib. O, 16 il müddətinə azadlıqdan məhrum edilib.

## ALİMLƏR: 2024-cü ilə kimi səbr etməliyik



**Rospotrebnadzor Q.P. Somov adına Elmi-Tədqiqat Epidemiologiya və Mikrobiologiya İnstitutunun direktoru, Uzaq Şərq Federal Universitetinin Biotibb fakültəsinin Epidemiologiya şöbəsinin müdiri Mixail Şçelkanov koronavirus pandemiyasının bitmə tarixini açıqlayıb.**

Medicina.az xəbər verir ki, alimin fikrincə, belə şəraitdə daha üç il yaşamalı ola bilərik.

”Bir çox regional xüsusiyyətlər var, lakin ümumi uzunmüddətli tendensiyadan danışsaq, o zaman 2022-ci ildə, eləcə də 2023-cü ildə hələ də pandemiya ilə yaşamağa hazır olmalıyıq, ola bilsin ki, 2024-cü ildə də. Ancaq hər şey əsasən bizim kollektiv immunitet səviyyəmizin nə qədər sürətlə artacağına və kollektiv immun səviyyəsinin virusun dəyişkənliyinə uyğun olub-olmayacağına görə müəyyənləşəcək”, - Şçelkanov RİA Novostiyə açıqlamasında qeyd edib.

## İstifadəçilər ən çox "YouTube" izləyir



**”URL Genius” marketinq şirkəti 10 sosial şəbəkə arasında araşdırma aparıb və onlardan hansının istifadəşiləri daha çox izlədiyini araşdırıb. Məlum olub ki, ən çox istifadəçi məlumatlarını toplayan şirkət ”YouTube” və ”TikTok”dur.**

Oxu.az əbər verir ki, tədqiqat üçün ”Apple” qacetlərində mövcud olan ”Tətbiq Fəaliyyətinin Qeydiyyatı” funksiyasından istifadə edilərək, ”YouTube”, ”TikTok”, ”Twitter”, ”Telegram”, ”LinkedIn”, ”Instagram”, ”Facebook”, ”Snapchat”, ”Messenger” və ”WhatsApp” xidmətləri yoxlanılıb.

”YouTube”un şəxsi məlumatları öz məqsədləri üçün (tarqet reklamlar üçün axtarış tarixçəsini və ya məkanı izləmək) topladığı bildirilir.

”TikTok” toplanan məlumatları əsasən üçüncü tərəf izləyiciləri ilə paylaşır, bu da bu məlumatların daha sonra necə istifadə edildiyini dəqiq söyləməkdə çətinlik yaradır.